

# Rövnəq Abdullayev SOCAR rəhbəri vəzifəsindən azad edildi

*Rövnəq Abdullayev Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) prezidenti vəzifəsindən azad edilib. "Unikal" xəbər verir ki, bu barədə Prezident İlham Əliyev müvafiq sərəncam imzalayıb. Qeyd edək ki, R.Abdullayev 2005-ci ildən SOCAR-ın prezidenti idi. Prezidentin digər sərəncamı ilə Rövnəq Abdullayev iqtisadiyyat nazirinin müavini təyin edilib.*

Səh.2


# UNİKAL

№05 (2090) 11 fevral 2022-ci il

Qiyməti 40 qəpik

Qurucusu: Asəf Rzayev

www.unikal.org

unikal-1@mail.ru




# Tağı Əhmədovun səhhət müamması...



Səh.9

# Bölgədə dayanıqlı sülhün yaranmasını istəməyən qüvvələr var

## Bakı Metropoliteninin sabiq rəisi "Fazil Məmmədov taktikası"ndan yararlanmaq istəyir?

*Bu həftə ölkə mediasında adı ön plana çıxanlardan biri də Bakı Metropoliteninin sabiq rəisi Tağı Əhmədov oldu.*

*Elektron mediada yazılanlara görə, vaxtilə 3 milyon dolları MTN generalı Akif Çovdarov tərəfindən əlindən alınan, daha sonra 2 milyon manatı sələmə verib dələduzlara yem eləyən Tağı Əhmədov YAP-ın Yasamal rayon təşkilatının binasında adam döymədiyini bildirir. Amma eyni zamanda əlavə edir ki, "döyübsə də yaxşı eləyib döyüb".*

*Bilənlər artıq bilir, bilməyənlərin də agahı olsun ki, Tağı Əhmədov dostu, professor Soltan Əliyevin vasitəsilə 2 milyon manatı ayda 30 min manat sələm almaq şərtilə mərmər biznesi ilə məşğul olan Səadət Xəlilov, Qulu Muxtarova...*

Səh.7

## Yeni pensiya islahatlarına ehtiyac var



*Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü, deputat Vüqar Bayramov "Unikal" qəzetinə müsahibə verib. O, pensiyalara edilən artımlar, bunun vətəndaşların sosial-rifahına təsiri və digər məsələlər barədə fikirlərini bölüşüb.*

Səh.4

## Vilyam Hacıyevin tövbəsi, yoxsa son ümid yeri...



*Yola salmaq üzrə olduğumuz həftə korrupsiyada ad çıxarmış daha bir keçmiş məmurun - İmişli rayonunun həbsdə olan sabiq icra başçısı Vilyam Hacıyevin dəmir barmaqlıqlar ardında ibadətə başladığı məlum oldu. Yerli KİV-in yazdığına görə, hazırda Bakı İstintaq Təcridxanasından...*

Səh.6

## Dövlət-din münasibətlərində yeni səhifə



*Qanunun 8-ci maddəsində əvvəlki variant isə belə idi: "İslam dininə aid ibadət yerlərinə və ziyarətgahlara rəhbərlik edən din xadimləri müvafiq icra hakimiyyəti orqanına məlumat verilməklə Qafqaz Müsəlmanları İdarəsi tərəfindən təyin olunur və hər beş ildən bir attestasiyadan keçir".*

Səh.11

# Natəvan Həbibi Oqtay Əliyevi ittiham etdi: "Korrupsiyaçısınız"

***Müğənni Natavan Həbibi ilə "SOY" prodakşının rəhbəri Oqtay Əliyev arasında qalmaqal yaşanıb.***

Oqtay Əliyevin onun ünvanına "Natavan Həbibinin yaşıdları "Xalq və Əməkdar artist"dirlər. Onun isə bir "qramota"sı belə yoxdur" deməsi müğənnini qəzəbləndirib.





Natavan "Azxeber" İnstaqram səhifəsinim şərh bölümündə O.Əliyevə sərt sözlər yazıb: "Vallah, mənə maraqlı deyil neçə nəfərsiz və neynirsiz. Sizə niyə maraqlıdır mənim işim, bilmədim onu da. Soğan yeməmisiz ki? Siz açıq-aşkar korrupsiya tərəfindən çıxış edib, hələ bir xidmətlərinizi sayırsınız... Kim kimin vəkilidir sizdə? Biri başa salsın ki, qanun hamı üçün qanundur".

Natəvan Həbibi keçmiş ATV işçiləri barədə ittihamlar da səsləndirib: "Bu arada, məni övladınızın məclisinə dəvət etmişdiniz. Elə bilirdim hörmətdəndir. Sən demə, sizin kimi böyük, bahalı insanlar, bizi - "plintus"dan aşağı olanları çağırıb oxutdurursuz sadacə. Köhnə adətinizdir. Pis öyrəşmisiniz də, köhnə ATV-dəkilər sənətçiləri day "dejurniy müğənni" eləmişdilər bağlarında, villalarında. Qadağa qoymasınlar deyə səhərə qədər səviyyəsizlərin kef etməklərini izləyirdik.

Təkrar edirəm, ailənizdə neçə nəfərsiz - hamınıza. Öz işinizlə məşğul olun, mənim mövzularıma müdaxilə etməyin. O adlar məsələsində lap uşaq bağçasında özümü hiss etdim. Ayıbdir, yekə adamlarsınız. Nə xoş sizə - sizə ad da verilir, maaş da, paket də, hörmət də... Hər şey elə sizə verilib. Mən də onu deyirəm də sizinki sizdə qalsın, mənim haqqım mənim özümə çatsin. Eybi yox, mən ona da sevinib şükr edərəm ki, sənətim, ruzum var... Ad olmasa da, Natavan Həbibiyəm. Məni yaradan sevsin, ad versin. Sizinlə bir yolda olmayaq".

# "Az qalırlar məni müxalifətçi çıxarsınlar" - Nura Suri



***Müğənni Nura Suri sosial şəbəkə hesabları vasitəsilə tez-tez ictimaiyyəti narahat edən problemləri işıqlandırdığına görə üzləşdiyi çətinliklərdən danışıb.***

Bu barədə o, feysbuk hesabında yazıb: "Mən vaxtında çox problemlərdən yazmışam. Efirlərdən, aparıcıların reytinq xətrinə müğənnilərdən istifadə etməsindən, kanal rəhbərlərinin və işçilərinin öz yaxınlarının, qohum və qonşuların tədbirlərində, restoranlarında havayı oxutdurmasından, getməyəndə kanala "zapret" qoymasından. Bölgələrdə, şəhərdə keçirilən bütün dövlət tədbirlərinə təmənnasız getməyimizdən, təşkilatçıların bizim adımıza yazıb öz ciblərinə qoyduqları qonorarlardan. Bölgələrdə, şəhərdə keçirilən bütün dövlət tədbirlərinə təmənnasız getməyimizdən, təşkilatçıların bizim adımıza yazıb öz ciblərinə qoyduqları qonorarlardan".

Suri qeyd edib ki, 2004-cü ildən karantin başlayana kimi bütün bölgələrdə, şəhərdə keçirilən dövlət tədbirlərinə öz hesabına gedib: "Yol pulu, köməkçi pulu, yemək pulu və s. öz cibimizdən ödəmişik. Dövlət üçün etmişik, bilməmişik ki, təşkilatçılar adımızdan pul alıb ciblərinə qoyurlar. Hələ etdiyimiz xeyriyyə işlərindən danışmıram. Xeyriyyə konsertləri, imkansızlara yardımlar və s. Bütün bunları dövlətimiz, xalqımız üçün etmişik. Söyülən də biz, "zapret"ə qoyulanda biz olmuşuq sonunda".

Nura yazıb ki, hər bir müğənni gördüyü işlərin bir gün dəyərləndirəcəyinə ümid edir, ona fəxri adın veriləcəyini gözləyir: "Başqa heç bir maraq güdməyib heç bir sənətçi (bu haqda da ayrı yazmaq lazımdır). Bəzi ad alan müğənnilərin heç biri dövlət başçısının görmədiyi tədbirə getməyiblər. Hər yerdən xeyir güdüb, pul qazanıblar ancaq. Bəziləri kiminsə toy məclislərində oxuya-oxuya alıblar ad. Heç vaxt bir konsertləri belə olmayıb. Keçmiş mədəniyyət nazirinin müğənnilərə qoyduğu dəyər göz önündədir, artıq şərhə heç ehtiyac da yoxdur. Bəzi qurumlar yazdıqlarım onlara sərf etmədiyindən az qalırlar məni müxalifətçi çıxarsınlar. Şəxsən mən bir qadın, müğənni, aparıcı kimi çox əzilmişəm. Amma heç vaxt öz problemlərimdən yazmamışam. Başqalarını düşünüb yazmışam. Bir gün haqq ədalət yerini tutar düşünərək səbr etmişəm".

# Günay İbrahimli: "Evlilik haqqında fikirləşirəm"

***Bu gün müğənni Günay İbrahimlinin 31 yaşı tamam olur.***



"Unikal" baku.ws-ə istinadən xəbər verir ki, ad günü münasibətilə sosial şəbəkədə paylaşım edən sənətçi instaqram izləyicilərinin də suallarını cavablandırıb.

Uzun müddətdir şəxsi həyatında heç kim olmayan Günay izləyicisinin "Evlilik haqqında nə fikirləşirsiniz?" sualına belə cavab verib: "İnsan var olduğu müddətdə hər şey haqqında fikirləşir. Evlilik haqqında fikirləşirəm, o cümlədən yeni mahnılar, kliplər, moda haqqında da fikirləşirəm".

Günay tez-tez efirlərə çıxmamasından da danışıb: "Vaxt azlığından verilişlərə çıxa bilmirəm. Ürəyimcə və zövqümcə olan proqramlar da azdır".

# Fatimə arıqlamaq üçün plastik əməliyyat etdirdiyini açıqladı



***Rəqqasə Fatimə Fətəliyeva bədən quruluşu ilə bağlı ünvanlanan sualları cavablandırıb.***

"Unikal" axşam.az-a istinadən xəbər verir ki, sənətçi bədənşəkilləndirmə əməliyyatı etdirdiyini açıqlayıb. O bildirib ki, əvvəlcə plastik əməliyyatla artıq çəkidən xilas olub. Fatimə daha sonra çəkini saxlamaq üçün rəqs və idmanla məşğul olduğunu vurğulayıb.

Qeyd edək ki, fatimə bundan əvvəl də bir neçə dəfə plastik əməliyyatla artıq çəkidən xilas olmağa çalışmışdı. Sənətçi eyni zamanda üzündə də bir neçə plastik proseduralar etdirib.



# XİN-də dövlət vəsaiti mənimsənilib - RƏSMİ

***Maliyyə Nazirliyinin Dövlət Maliyyə Nəzarəti Xidmətinin ötən il Xarici İşlər Nazirliyində (XİN) apardığı nəzarət tədbirləri zamanı dövlət büdcəsində dəftərxana və təsərrüfat mallarının alınması üçün nəzərdə tutulmuş vəsaitin satıcı təşkilatların hesablarına köçürülməsinə baxmayaraq, həmin malların, habelə mətbəə blanklarının bir hissəsinin faktiki olaraq alınmadığı aşkar olunub.***

"Unikal" bu barədə Maliyyə Nazirliyinə istinadən xəbər verir. Məlumatda deyilir ki, sözügedən XİN-də istifadə olunan kompüter avadanlığı və texniki vasitələr üçün ehtiyat hissələrinin, habelə hədiyyə və suvenirlərin alınması məqsədilə köçürülmüş vəsaitin müqabilində həmin material qiymətlilərinin xeyli hissəsinin faktiki olaraq alınmadığı, bankdan çıxarılaraq Nazirliyin kassasına mədaxil edilən büdcə vəsaitinin bir hissəsinin xərclənməsinə dair sənəd olmadığı halda isə məxaric edilməsi yolu ilə əsassız xərcləndiyi müəyyənləşib.

# Səhiyyə naziri karantin rejimindən danışdı

***Ötən 10 həftə ərzində dünyada 90 milyon insan koronavirusun omikron ştammına yoluxub.***

"Unikal"ın məlumatına görə, bunu səhiyyə naziri Teymur Musayev keçirdiyi brifinqdə deyib.

Onun sözlərinə görə, hazırda respublikada virusla bağlı vəziyyət tam nəzarət altındadır.

"Omikronla bərabər hələ də Delta ştammına yoluxmalar da mövcuddur. Müəyyən müddətdən sonra omikron və deltanın nisbi rəqəmləri nümayiş olunacaq. Məhdudlaşdırıcı addımların atılmasına zərurət yoxdur. Xəstəliyin gedişatına görə sərt karantin rejimi barədə düşünmək olar", - deyə o əlavə edib.

# Bu icra hakimiyyətlərində nöqsanlar aşkarlanıb

***Biləsuvar, Cəlilabad və Şəmkir rayon icra hakimiyyətlərində və tabeli qurumlarında aparılan nəzarət tədbirləri nəticəsində inzibati binalarda, həmin rayon ərazilərindəki avtomobil yollarında təmir-tikinti işlərinin həcmlərinin sənədləşmələrdə artırılması, büdcə təşkilatları tərəfindən vəsaitin köçürülməsinə baxmayaraq, material qiymətlilərinin alınmaması, binaların qızdırılması üçün dizel yanacağının alınmasına ayrılmış vəsaitin mənimsənilməsi halları müəyyən olunub.***

"Unikal" xəbər verir ki, bu barədə Maliyyə Nazirliyinin məlumatında bildirilib.

Qeyd olunub ki, adıçəkilən icra hakimiyyətləri başçılarının aparatlarına maddi təminatı zəif olan sakinlərə yardımların verilməsi məqsədilə ayrılmış vəsaitlərin, habelə müvəqqəti işə qəbul edilən işçilərə müvafiq iş və ya xidmətləri yerinə yetirmədikləri halda adlarına hesablanaraq ödənilmiş vəsaitlərin aidiyyəti rayon icra hakimiyyətinin məsul şəxsləri tərəfindən geri alındığı və bu kimi digər hallara yol verildiyi, bununla da büdcə vəsaitinin təyinatından yayındırıldığı aşkar edilib.

# Ziya Məmmədovla 100 milyon manatlıq hesablaşma zamanı

## Sabiq nazirin "ölü doğulan" layihəsini diriltmək mümkün olacaqmı?

***2020-ci ilin mayında yerli KİV-lər yazırdı ki, "müasir meqapolisə çevrilən Bakı şəhərində Nəqliyyatın İntellektual İdarəetmə Sisteminin daha mütərəqqi və davamlı texnologiyalara əsaslanaraq inkişaf etdirilməsi istiqamətində işlər davam etdirilir. Məqsəd, bu sahədə göstərilən xidmətin keyfiyyətini artırmaqdır. Görülən işlərin səmərəli olması üçün inkişaf etmiş şəhərlərin təcrübəsi də öyrənilir. Bu məqsədlə, Türkiyənin İstanbul şəhərinin İSBAK (İstanbul İnformasiya və Ağıllı şəhər Texnologiyaları) şirkətinin nümayəndələri Bakıda səfərdə olub.***

Məlumatda o da bildirilirdi ki, Bakı Nəqliyyat Agentliyinin (BNA) təşəbbüsü ilə baş tutan səfər çərçivəsində İSBAK şirkətinin mütəxəssisləri Nəqliyyatın İntellektual İdarəetmə Mərkəzi ilə tanış olub. Nəqliyyatın idarə edilməsi sahəsində mövcud vəziyyət, çatışmazlıqlar və onların həlli yolları ilə bağlı ətraflı fikir mübadiləsi aparılıb. "Keçirilən görüşlər zamanı tətbiq edilən texnologiyalar və gələcək planlar, şəhərin nəqliyyat planlaşdırılmasında nəzərə alınması vacib olan məqamlar da müzakirə edilib. İSBAK mütəxəsisləri Bakı Nəqliyyat Agentliyinin həyata keçirəcəyi layihələrin uğurla reallaşmasına hərtərəfli dəstək verməyə hazır olduqlarını bildiriblər" - xəbərdə deyilirdi.



Lakin bu xəbər quru söz yığınından o tərəfə getmədi.

Həmin vaxt mediamızda bu məlumat "Nəqliyyatın İntellektual İdarəetmə Sistemi təkmilləşdirilir" başlığı ilə təqdim olunmuşdu. Lakin proses onunla nəticələndi ki, yola salmaq üzrə olduğumuz həftə uzun zamandan bəridir ictimai tənqid hədəfi olan BNA Bakı Şəhər İcra Hakimiyyətinin, qurulması üçün on milyonlarla manatın xərcləndiyi və etimadı qətiyyən doğrultmayan Nəqliyyatın İntellektual İdarəetmə Mərkəzi isə Daxili İşlər Nazirliyinin tabeliyinə verildi.

Yada salaq ki, 2011-ci ildə o zamankı nəqliyyat naziri Ziya Məmmədovun rəhbərliyi altında Cənubi Koreya şirkəti ilə 100 milyon manatlıq bir sövdələşmə ilə Bakı şəhəri üzrə nəhəng bir texnoloji infrastruktur və informasiya sistemi, həmçinin də onu idarə etmək üçün Nəqliyyatın İntellektual İdarəetmə Mərkəzi (NİİM) yaradılmışdı. Lakin qısa zaman sonra məlum oldu ki , NİİM qarşıya qoyulan vəzifələri yerinə yetirə bilmir... 2015-ci ildən bu mərkəz Bakı Nəqliyyat Agentliyinin tabeçiliyinə keçsə də bu layihənin effektliliyi barədə yerli-dibli danışmaq mümkün deyil.

NİİM-in yaradılması zamanı qarşıya qoyulan vəzifə Bakı şəhərində nəqliyyatı texnologiyaların köməyi ilə intellektual formada idarə etmək, işıqforları tam avtomatik idarə etmək, texnologiyalar vasitəsilə tıxacların qarşısının alınmasına və idarə olunmasına nəzarət etmək, SMS məlumatlandırma ilə vəziyyətdən çıxış, alternativlər təqdim etmək, sürücülərin məlumatlandırılmasını təşkil etmək və s. olub.

Qısa zamanda məlum oldu ki NİİM qarşıya qoyulan vəzifələri yerinə yetirmək imkanından məhrumdur. Dayanacaqlarda quraşdırılan, dəyəri az qala 10 min dollar olan 700-dək monitorlar, yüzlərlə müşahidə kameraları, kilometrlərlə fiber optik infrastruktur, yüzlərlə avtobuslarda quraşdırılan GPS tipli avadanlıqlara, NİİM-də quraşdırılan dünyanın ən böyük monitoruna baxmayaraq bu nəhəng infrastruktur elə ilk vaxtlardanca iflas oldu. Bu isə, ekspertlər tərəfindən haqlı olaraq, Azərbaycanın İT (yəni informasiya texnologiyaları) tarixində ən bahalı və ən uğursuz layihə kimi dəyərləndirilir.

Düzdür, 2015-ci ildə Bakı Nəqliyyat Agentliyi (BNA) yaradılarkən artıq ləğv edilmiş Nəqliyyat Nazirliyinin tabeliyində olan Nəqliyyatın İntellektual İdarəetmə Mərkəzi də yeni qurumun nəzarətinə keçdi, ancaq həmin müddətdən sonra da sistemin işləməsində hər hansı müsbət dəyişiklik baş vermədi. Belə ki, adıçəkilən Mərkəz BNA-nın tərkibinə verildikdən sonra bu sistemin bərpası, videomonitorlara texniki xidmət, videorabitə işləri, serverlər, nəqliyyat planlaması və trafik təhlili proqram təminatları ilə bağlı BNA-ya təxminən 28 milyon manat ayrılsa da, nəticə əldə olunmadı.

Bir sözlə, Nəqliyyatın İntellektual İdarəetmə Sisteminin təkmilləşdirildiyi barədə zaman-zaman verilən açıqlamalara baxmayaraq sözügedən layihəni "diriltmək", "ölü nöqtədən tərpətmək" heç cür mümkün olmur. Çünki bu layihə lap əvvəldən "ölü doğulmuşdu". Ziya Məmmədovun 100 milyon manata rəğmən NİİM-in paytaxt nəqliyyatındakı xaotik duruma azacıq da olsa əncam çəkməməsi yazdığlarımıza sübutdur. Bəs səbəb nədir? Xeyli faktor sadalamaq olar. Fikrimizcə, bunlardan ən başlıcası "nəqliyyat şefi"nin bütün layihələrə korrupsiya predmeti kimi baxması, ilk növbədə nə qədər pulu mənimsəmək barədə düşünməsidir. Razılaşın ki, korrupsiyanın, yeyintinin qarışdığı heç bir layihənin uğur qazanmaq şansı yoxdur.

Yeri gəlmişkən: 2015-ci ildə Milli Məclisin iclaslarından birində Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli maraqlı təşəbbüslə çıxış etmişdi. O, Nəqliyyatın İntellektual İdarəetmə Mərkəzinin daxili işlər orqanlarına verilməsini təklif etmiş, fikrini də onunla əsaslandırmışdı ki, ölkəmizdə yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi Dövlət Yol Polisinin, yəni daxili işlər orqanlarının səlahiyyətindədir. Bu Mərkəz müəyyən qədər yol hərəkətinə aid olduğuna görə daxili işlər orqanlarına verilməlidir. Bundan əlavə, Nəqliyyatın İntellektual İdarəetmə Mərkəzi büdcədən əlavə xərclərə səbəb olur. Ona görə də deputat təklif etmişdi ki, hökumət bu məsələyə baxmalıdır.

Həmin vaxt başqa bir deputat, hazırda Milli Məclisin vitse spikeri olan Adil Əliyev də sözügedən təklifi dəstəkləmişdi. Sitat: "Bəzən yol polisindən işıqforun yanmamasını soruşanda deyirlər ki, bu səlahiyyət bizdə deyil. Həmin anda da NİİM-ə zəng etmək çətin olur. Yaxşı olardı ki, bu qurum Daxili İşlər Nazirliyinin tərkibinə birləşdirilsin".

Lakin sonradan həmin təşəbbüs unuduldu, daha doğrusu, NİİM-in yeni yaradılan BNA-ya verilməsi ilə gündəmdən çıxdı. Bir çoxunun fikrincə, aradan keçən beş ildə sözügedən layihənin effektliliyinə nail olunmaması bu barədə yenidən düşünmək zərurəti yaradırdı.

Və budur, ən doğru qərar verildi və NİİM, arzulandığı kimi, DİN-in tabeliyinə verildi. Bundan sonra həmin layihənin axır ki, "diriləcəyini", özünü doğruldacağını düşünmək mümkündür. Lakin eyni zamanda Ziya Məmmədovdan 100 milyon manat xərclədiyi halda sözügedən proyektin 10 ildən çoxdur niyə bir dərdə dərman olmadığını soruşmaq vaxtıdır...

**Sənan Mirzə**

# Bölgədə dayanıqlı sülhün yaranmasını istəməyən qüvvələr var

## Rusiya sülhməramlı kontingenti sabitliyi təmin edə bilmir. Ermənistan isə təxribatlarına davam edir

***Fevralın 9-u saat 22:00-dan etibarən fasilələrlə bir neçə saat ərzində Ermənistan silahlı qüvvələrinin bölmələri Basarkeçər rayonunun Yuxarı Şorca yaşayış məntəqəsində yerləşən mövqelərindən Kəlbəcər rayonunun Zəylik yaşayış məntəqəsində yerləşən Azərbaycan Ordusunun mövqelərini atıcı silahlardan istifadə etməklə atəşə tutub.***

Bu barədə ”Unikal”a Müdafiə Nazirliyindən məlumat verilib. Bölmələrimizin cavab tədbirləri nəticəsində qarşı tərəf susdurulub. Hazırda qeyd olunan istiqamətdə vəziyyət sabitdir, əməliyyat şəraiti bölmələrimizin nəzarəti altındadır.



Bir neçə gün öncə isə Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qanunsuz erməni silahlı dəstəsinin üzvləri tərəfindən Tərtər rayonunun Qapanlı kəndi istiqamətində yerləşən Azərbaycan Ordusunun mövqeləri heç bir səbəb olmadan fasilələrlə atıcı silahlardan atəşə tutulmuşdu.

Mövqelərimiz atəşə tutulan zaman Qapanlı yaşayış məntəqəsi ərazisindəki mülki tikiliyə güllə dəyib. Təxribat törədən qanunsuz erməni silahlı dəstəsinin üzvlərinin spirtli içkinin təsiri altında atəş açmaları tərəfimizdən müşahidə edilib. Hadisə ilə bağlı dərhal Rusiya sülhməramlı kontingentinin komandanlığına və Rusiya-Türkiyə Birgə Monitorinq Mərkəzinə məlumat verilib.

Azərbaycandakı Rusiya sülhməramlı kontingentinin fəaliyyətindən narazılıq yaradan növbəti əsaslı hadisələrin baş verməsi, eləcə də Ermənistanın sərhəddə təxribatçı addımlardan çəkinməməsi narahatlıq yaradır. Məsələ odur ki, Ermənistanla yanaşı, Rusiya sülhməramlı kontingentinin də razılaşmalara uyğun davranmaması yeni gerginlik ocağının yaranmasına gətirib çıxara bilər.

Politoloq Məhəmməd Əsədullazadə “Cümhuriyyət” qəzetinə bildirib ki, Rusiya öz mandatından kənar və gərginliyin artmasına səbəb olacaq fəaliyyətlə məşğuldur. Onun sözlərinə görə, rəsmi Bakı bununla bağlı öz etirazını qarşı tərəfə çatdırıb. Rusiyanın fəaliyyəti Qarabağda Azərbaycana qarşı təzyiq etməklə özünün geosiyasi maraqlarını təmin etməyə yönəlib: “Ümumiyyətlə, Rusiyanın əsas strateji planı Qarabağda erməniləri müdafiə etmək, erməni separatizmini qoruyub saxlamaq, bundan Azərbaycanla Ermənistana təzyiq vasitəsi kimi istifadə etmək və bölgədə daimi qalmasını təmin etməkdir. Rusiyanın tanınmış yazıçılarına Qarabağda abidələr qoyulması, adına parklar salınması, bu regionu Abxaziya, Cənubi Osetiya kimi özünə bağlamaq niyyətindən xəbər verir. Təbii ki, Azərbaycan buna imkan verə bilməz. Rusiyanın bu fəaliyyəti də uğursuzluqla nəticələnəcək. Fikrimcə, Rusiyanın bu siyasəti regiondakı mövqelərinin zəifləməsinə gətirib çıxaracaq. Azərbaycan Rusiyanı sülhün formalaşmasında iştirak etməyə, Qarabağın kiçik bir hissəsində sülhü təmin etməyə dəvət edib. Amma biz fərqli siyasət görürük. Rusiya sülhməramlıları sülhün əldə olunmasına qarşı çıxır. Hətta Azərbaycanın suverenliyini təhdid edir. Ona görə də Azərbaycan 4 ildən sonra sülhməramlıların çıxarılmasını tələb etməlidir”.

Müsahibimiz onu da vurğulayıb ki, Ermənistanın sərhədlərin delimitasiya və demarkasiyası prosesində Azərbaycana şərt irəli sürməsi göstərir ki, bu ölkə ilə normallaşma prosesi uzun çəkəcək: “Məğlub və Azərbaycanın ərazi bütövlüyünü tanımayan Ermənistana qarşı təzyiqlər mütləqdir. Bu ölkə şərt irəli sürürsə əldə olunan razılaşmalara ziddir. N. Paşinyan görünür indiki şərtlər daxilində sərhəd məsələlərində danışıqlarda maraqlı deyil. Daxildə ona qarşı narazılığın baş qaldırmasından çəkinir. Ümumiyyətlə, Ermənistanla sülh uzun prosesdir. Baxmayaraq ki, Türkiyə ilə Ermənistan arasında danışıqlar gedir. Azərbaycan iki ölkə arasında münasibətlərin normallaşmasına mümkün sülh müqaviləsinin bağlanması imkanları kimi baxır. Əgər Ermənistan bundan yayınarsa, sülhün şərtlərini qəbul etməsə, Ankara əlaqələri kəsəcək”.

Milli Məclisin deputatı Ceyhun Məmmədov isə bildirib ki, son günlər sülhməramlıların nəzarətindəki ərazilərdə separatçıların təxribatlarının davamlı xarakter aldığı müşahidə olunur. Onun sözlərinə görə, Tərtərin ərazisinin atəşə tutulması, Xocalıda aktiv tikintinin aparılması, tranşeylərin qazılması, Bakcell-in əməkdaşının güllələnməsi, separatçıların davamlı təxribatçı bəyanatlar səsləndirməsi, qondarma “Artsaxın işğalı haqqında qanun layihəsi”nin hazırlanması barədə fikirlər və digər təxribat əməlləri bu fikri bir daha təsdiq edir:

“Sülhməramlıların bu təxribatlara seyrçi qalması, reaksiya verməməsi, bir sıra hallarda dəstəkləməsi haqlı olaraq Azərbaycan cəmiyyətində ciddi narazılıq doğurur. Sülhməramlıların əsas missiyası atəşkəsə əməl edilməsinə nəzarət etmək, bölgə xalqları arasında sülhü, qarşılıqlı etimadı, birgə yaşayışı təmin etməkdir. Təəssüf ki, sülhməramlıların bu məsələlərlə bağlı hansısa ciddi addımlar atdıqları müşahidə olunmur. Əksinə onların başları burada humanitar aksiyalara qarışıb. Bir gün məktəb, ev tikintisi həyata keçirir, su daşıyır, ərzaq paylayır, o biri gün məktəblərdə şagirdlərlə görüşlər keçirirlər. Ermənilər də bundan istifadə edərək, öz xəbis və məkrli niyyətlərini həyata keçirməyə davam edir, yeni təxribatlar törətməyə çalışırlar”.

Deputat bildirib ki, bu təxribatlara mütləq son qoyulmalıdır: “Separatçılar unutmasınlar ki, “dəmir yumruq” hər zaman hazırdır. Əgər belə təxribatlar davam etsə, bunun cavabı çox sərt və ağır olacaq. Azərbaycan bölgəyə davamlı sülhün gəlməsinə çalışır, bütün addımlar buna hesablanıb. Bölgənin inkişafı davamlı sülhdən çox asılıdır. Ermənistan konkret mövqe bildirməlidir. Əgər sülh istəyirsə, Azərbaycan sülhə hazırdır. Yox məqsəd müharibə, Azərbaycanın səbrini sınağa çəkməkdirsə Azərbaycan müharibəyə də hazırdır. Ancaq bunun aqibəti ermənilər üçün heç yaxşı olmayacaq”.

Millət vəkilinin fikrincə, görünən odur ki, erməni xalqı hələ də unutqanlıq xəstəliyindən sağalmayıb. “Ona görə başlarına gələnləri çox tez unudurlar. Ermənilər Vətən müharibəsində öz çirkin əməlləri ucbatından yaşadıqları acı müsibətlərdən çox ciddi nəticələr çıxarmalıdırlar. Əgər bunu etməsələr, “dəmir yumruq” yenidən işə düşəcək və bu dəfə zərbə daha ağır olacaq, itkilərin sayı bir neçə dəfə artacaq. Azərbaycan 44 günlük müharibədə bunu bütün dünyaya göstərdi. Nə qədər gec deyil separatçılar bu barədə ciddi düşünməlidirlər. Onların bir yolu var: o da sülhə razılaşmaq və yekun sülh müqaviləsini imzalamaq. Digər bütün cəhdlərin nəticəsi uğursuz və ağır olacaq. Heç kim Azərbaycanın səbrini zorlamağa cəhd etməsin”.

***Z.Məmmədli***



# Zakir Həsənov Ümumqoşun Təlim Mərkəzində

***Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin göstərişinə əsasən, Azərbaycan Ordusunda aparılan islahatlar çərçivəsində müasir standartlara cavab verən hərbi infrastrukturun yaradılması və bölmələrin döyüş hazırlığının yüksəldilməsi istiqamətində həyata keçirilən tədbirlər davam etdirilir.***

Müdafiə Nazirliyindən ”Unikal”a verilən məlumata görə, Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti Quru Qoşunlarının Ümumqoşun Təlim Mərkəzində olub.

Məruzə olunub ki, mərkəzdə komando və digər qoşun növü bölmələrinin təyinatı nəzərə alınmaqla, bu bölmələrdə xidmət edən hərbi qulluqçuların döyüş hazırlığının və taktiki-xüsusi bacarıqlarının inkişaf etdirilməsi məqsədilə təlimlər keçirilir.

Mərkəzdə müasir döyüş üsullarının praktiki tədbiq edilməsi üçün real şəraitə uyğunlaşdırılmış təlim nöqtələri inşa olunub. Hərbi qulluqçuların istənilən hava şəraitində döyüş vərdişlərini təkmilləşdirmək, o cümlədən fiziki və atəş hazırlıqlarını yüksəltmək məqsədilə zəruri şərait yaradılıb. Bununla yanaşı, hərbi qulluqçulara mürəkkəb dağ şəraitində döyüş aparmaq, pusqu və kəşfiyyat-axtarış tədbirləri həyata keçirmək, eləcə də yaşayış məntəqələrində əməliyyatların və antiterror fəaliyyətlərinin aparılması öyrədilir. Sonra nazirliyin rəhbər heyəti yeni inşa edilən qərargah binası ilə tanış olub.

Bildirilib ki, mərkəzin qərargah binası müasir səviyyədə inşa olunub. Binada hərbi qulluqçular üçün sinif, inzibati və xidməti iş otaqları mövcuddur. Bütün otaqlar zəruri mebel və avadanlıqlar, o cümlədən əyani təbliğat vasitələri ilə tam təchiz edilib. Binada mərkəzləşdirilmiş istilik sistemi, işıq, su və kommunikasiya xətləri çəkilib. Ərazidə abadlıq işləri aparılıb.

Daha sonra general-polkovnik Z.Həsənov mərkəzdə hərbçilər üçün yeni inşa edilən əsgər yataqxanasının açılışında iştirak edib. Yeni tikilən binada silah, ideoloji, məişət, dəftərxana və digər otaqlar zəruri avadanlıqla təchiz olunub. Yataqxanada şəxsi heyətin qalması, istirahəti və asudə vaxtlarının səmərəli təşkili üçün hər cür şərait yaradılıb.

Müdafiə naziri Vətən müharibəsində qazanılan təcrübənin tətbiq edilməsi ilə müasir təlim-məşq üsullarının öyrənilməsi, onların döyüş hazırlığında tətbiqi və mövcud şəraitə uyğunlaşdırılaraq icra olunması ilə bağlı müvafiq tapşırıqlar verib.

# Prezidentdən müharibə iştirakçıları ilə bağlı sərəncam



***Azərbaycan Prezidenti İlham Əliyev Vətən müharibəsi iştirakçılarının təltif edilməsi haqqında sərəncam imzalayıb.***

"Unikal" xəbər verir ki, dövlət başçısının sərəncamına əsasən, Azərbaycanın 2020-ci il sentyabrın 27-dən noyabrın 10-dək olan dövrdə Vətən müharibəsində iştirak etmiş, aparılan döyüş əməliyyatlarının uğurla nəticələnməsinə töhfə vermiş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçuları və mülki işçiləri, habelə ön cəbhədə fədakarlıq göstərmiş mərkəzi və yerli icra hakimiyyəti orqanlarının, Azərbaycan Respublikası Prezidentinin yaratdığı publik hüquqi şəxslərin və dövlətə məxsus digər hüquqi şəxslərin əməkdaşları və mülki işçiləri "Vətən müharibəsi iştirakçısı" medalı ilə təltif ediliblər.

Həmin şəxsləri "Vətən müharibəsi iştirakçısı" medalı ilə təltif etmək səlahiyyəti Baş nazirə verilib. Nazirlər Kabineti Vətən müharibəsi iştirakçılarının siyahısını aşağıdakılar nəzərə alınmaqla müəyyən edəcək:

"Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda döyüş əməliyyatlarında iştirak etmiş şəxslərə "Müharibə veteranı" adının verilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 29 dekabr tarixli 3088 nömrəli Sərəncamının 1-ci hissəsinə əsasən "Müharibə veteranı" adı verilmiş şəxslərin siyahısı;

Əməkdaşları və mülki işçiləri ön cəbhədə fədakarlıq göstərmiş digər mərkəzi, habelə yerli icra hakimiyyəti orqanlarının, eləcə də Azərbaycan Respublikası Prezidentinin yaratdığı publik hüquqi şəxslərin və dövlətə məxsus digər hüquqi şəxslərin təqdim etdiyi məlumatlar.

# Rövnəq Abdullayev SOCAR rəhbəri vəzifəsindən azad edildi



***Rövnəq Abdullayev Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) prezidenti vəzifəsindən azad edilib.***

"Unikal" xəbər verir ki, bu barədə Prezident İlham Əliyev müvafiq sərəncam imzalayıb.

Qeyd edək ki, R.Abdullayev 2005-ci ildən SOCAR-ın prezidenti idi.

Prezidentin digər sərəncamı ilə Rövnəq Abdullayev iqtisadiyyat nazirinin müavini təyin edilib.

Sözügedən Sərəncamla bağlı Dövlət Neft Şirkətinin sabiq prezidenti Rövnəq Abdullayev "Unikal"a açıqlama verib: "Cənab Prezident İlham Əliyevin məni Azərbaycan Dövlət Neft Şirkətinin prezident vəzifəsindən azad edərək, iqtisadiyyat nazirinin müavini təyin edib. Prezidentin sözügedən sərəncamını yüksək qiymətləndirirəm. Buradakı işimə yeni təyin olunduğum üçün geniş açıqlama verə bilməyəcəm".

Baş redaktor:
Zaur Əhməd

Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:2500

# Rövşən Nəcəf Müşahidə Şurasından çıxarıldı

***Prezident İlham Əliyev "Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Müşahidə Şurasının tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 23 yanvar tarixli 2446 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə Sərəncam imzalayıb.***

"Unikal" xəbər verir ki, Sərəncama əsasən, "Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Müşahidə Şurasının tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 23 yanvar tarixli 2446 nömrəli Sərəncamından "Rövşən Nəcəf - Azərbaycan Respublikası iqtisadiyyat nazirinin müavini" sözləri çıxarılır.

# Dövlət Ehtiyatları Agentliyinin Nizamnaməsi təsdiq edildi

***Azərbaycan Respublikası Prezidenti İlham Əliyev Azərbaycan Respublikası Dövlət Ehtiyatları Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında Fərman imzalayıb.***

"Unikal"ın xəbərinə görə, Fərmana əsasən, "Azərbaycan Respublikası Dövlət Ehtiyatları Agentliyinin Nizamnaməsi" təsdiq edilib (əlavə olunur).

2. "Azərbaycan Respublikası Dövlət Ehtiyatları Agentliyinin strukturu" təsdiq edilsin (əlavə olunur).

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. Azərbaycan Respublikası Dövlət Ehtiyatları Agentliyinin (bundan sonra ? Agentlik) nizamnamə fondunun formalaşdırılması üçün "Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının 2021-ci il 3 dekabr tarixli 401-VIQ nömrəli Qanununun tətbiqi ilə bağlı bir sıra məsələlər barədə" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 23 dekabr tarixli 1526 nömrəli Fərmanının 1.12.4.1-ci yarımbəndində (Dövlət ehtiyatlarının yaradılması və təşkili) nəzərdə tutulmuş vəsaitdən 2 516 300,0 (iki milyon beş yüz on altı min üç yüz) manat vəsaitin Agentliyə ayrılmasını təmin etsin;

3.2. "Dövlət ehtiyatları haqqında" Azərbaycan Respublikası Qanununun layihəsini hazırlayıb dörd ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.3. üç ay müddətində:

3.3.1. ölkənin istehlak bazarında strateji əhəmiyyətli malların siyahısını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etsin;



3.3.2. dövlət və səfərbərlik ehtiyatlarının yaradılmasına, saxlanılmasına, idarə edilməsinə və bundan irəli gələn digər məsələlərin tənzimlənməsinə dair təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.4. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

# XİN Maliyyə Nazirliyinin yoxlamasına dair hesabata münasibət bildirdi

***"Maliyyə Nazirliyinin Dövlət Maliyyə Nəzarəti Xidmətinin məlumatında aparılan yoxlamanın əhatə etdiyi dövr göstərilmədiyindən, məsələyə aydınlıq gətirməyi vacib hesab edirik. Vurğulamaq istərdik ki, Dövlət Maliyyə Nəzarəti Xidməti tərəfindən 2021-ci ildə aparılmış nəzarət tədbirləri 2015-ci ilin 1 yanvar tarixindən 2020-ci ilin 3 iyul tarixinədək olan dövrü əhatə edir".***

"Unikal"ın xəbərinə görə, bu-



nu XİN-in sözçüsü Leyla Abdullayeva deyib.

"Məlum olduğu kimi, DTX-nın 2020-ci ildə apardığı əməliyyat nəticəsində XİN-in İşlər İdarəsinin məsul əməkdaşları saxlanılıb və aparılmış istintaq hərəkətləri nəticəsində XİN zərərçəkmiş şəxs qismində tanınıb. Bakı Ağır Cinayətlər Məhkəməsinin qanuni qüvvəyə minmiş 22 dekabr 2021-ci il tarixli hökmünə uyğun olaraq, həmin şəxslərdən cinayət hərəkətləri nəticəsində əldə olunmuş vəsaitin XİN-ə ödənilməsi qeyd olunub", - XİN rəsmisi vurğulayıb.

# "Biz Azərbaycanla sülh sazişi imzalamaq istəyirik" - Paşinyan

***"Biz Azərbaycanla sülh sazişi imzalamağı və Türkiyə ilə diplomatik əlaqələr qurmağı hədəfləyirik".***

"Unikal" xəbər verir ki, bunu Ermənistanın Baş naziri Nikol Paşinyan bu gün keçirilən parlamentin iclasında deyib. Paşinyan Türkiyə və Azərbaycanla münasibətlərin normallaşması üçün "danışıqlara hazır" olduğunu vurğulayıb.

Qarabağda açılması planlaşdırılan dəmir yolunun da qanuni qeydiyyatdan keçməli olduğunu bildirən Ermənistanın baş naziri Bakıdan müsbət cavab alınacağı təqdirdə magistral yollarda abadlıq və tikinti işlərinə hazır olduqlarını da qeyd edib.



***Gülayə Mecid***

# Rafael Ağayevə yeni vəzifə və rütbə verildi

***Azərbaycanın tanınmış karateçisi, 5 qat dünya və 11 qat Avropa çempionu Rafael Ağayevə Dövlət Gömrük Komitəsində (DGK) yeni vəzifə və rütbə verilib.***

37 yaşlı idmançı "Azertermi-nalkompleks" Birliyinin Gömrük Fəaliyyətinin Həyata Keçirilməsinə Yardım Xidmətində inspektor vəzifəsindən azad edilib. Ağ-



ayev Baş Gömrük Mühafizə Xidmətində Döyüş və fiziki hazırlığın təşkili şöbəsinin rəisi təyin edilib.

Təcrübəli karateçiyə mayor rütbəsi də verilib.

Qeyd edək ki, Rafael Ağayev 2021-ci ildə keçirilmiş Tokio Yay Olimpiya Oyunlarında 75 kq çəki dərəcəsində gümüş medal qazanıb.

# Prezident İlham Əliyev moldovalı naziri qəbul etdi

***Fevralın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ölkəmizdə rəsmi səfərdə olan Moldova Respublikasının Baş nazirinin müavini, xarici işlər və Avropaya inteqrasiya naziri Niku Popeskunu qəbul edib.***

"Unikal"xəbər verir ki, Prezident İlham Əliyev ötən ilin dekabrında Moldova Prezidenti Maya Sandu ilə Brüsseldə keçirdiyi görüşü məmnunluqla xatırlayıb və ölkələrimiz arasında əməkdaşlığın hərtərəfli inkişafı üçün böyük potensialın olduğunu vurğulayıb.

Moldova Respublikasının Baş nazirinin müavini, xarici işlər və Avropaya inteqrasiya naziri Niku Popesku Moldova Prezidentinin salamlarını dövlət başçısına çatdırıb.



Prezident İlham Əliyev Moldovanın dövlət başçısının salamlarına görə minnətdarlığını bildirib, onun da salamlarını Maya Sanduya çatdırmağı xahiş edib.

Nazir Niku Popesku ölkələrimiz arasında diplomatik münasibətlərin olduğu 30 ilə yaxın müddətdə həmrəylik prinsipindən çıxış edərək Azərbaycan və Moldovanın daim bir-birinin ərazi bütövlüyünü və suverenliyini dəstəklədiyini diqqətə çatdırıb. Niku Popesku iqtisadi, ticarət, sərmayə qoyuluşu, kənd təsərrüfatı, enerji sahələrində və digər sahələrdə əməkdaşlıq üçün geniş imkanların olduğunu bildirib, bu sahələrdə konkret layihələrin həyata keçirilməsinin vacibliyini vurğulayıb.

# Mikayıl Cabbarovun yeni birinci müavini kimdir? - DOSYE

***Xəbər verdiyimiz kimi, Elnur Aydın oğlu Əliyev iqtisadiyyat nazirinin müavini vəzifəsindən azad edilib. Bu barədə Prezident İlham Əliyev sərəncam imzalayıb. Prezidentin digər sərəncamı ilə E.Əliyev iqtisadiyyat nazirinin birinci müavini təyin edilib.***

"Unikal"ın məlumatına görə, E.Əliyev 1983-cü il iyunun 4-də Gəncə şəhərində anadan olub. 1998-ci ildə Bakı Dövlət Universitetinin Hüquq fakültəsinə daxil olub, 2002-ci ildə həmin fakültəni bakalavr, 2006-cı ildə magistr dərəcələri üzrə fərqlənmə ilə bitirib, "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" çərçivəsində 2008-2009-cu illərdə Böyük Britaniyanın London Kral Kollecində beynəlxalq biznes hüququ üzrə magistr təhsili alıb.

2002-2003-cü illərdə həqiqi hərbi xidmətdə olub. Əmək fəaliyyətinə İqtisadi İnkişaf Nazirliyində başlayıb, 2005-2009-cu illərdə Nazirlikdə məsləhətçi, aparıcı məsləhətçi, sektor müdiri vəzifələrində çalışıb. 2010-2013-cü illərdə Nazirlər Kabineti yanında "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi rəisinin köməkçisi vəzifəsində işləyib. 2013-2017-ci illərdə Təhsil Nazirliyində nazir köməkçisi, şöbə müdiri, aparat rəhbəri vəzifələrində çalışıb. 2017-ci ilin dekabrından 2020-ci ilin mayınadək Vergilər nazirinin müşaviri olub.



Azərbaycan Respublikası Prezidentinin 13 may 2020-ci il tarixli Sərəncamı ilə İqtisadiyyat nazirinin müavini vəzifəsinə təyin edilmişdi.

Bakı Dövlət Universitetində pedaqoji fəaliyyətlə məşğuldur.

Evlidir, 2 övladı var.

# SOCAR-ın birinci vitse-prezidenti təyin olundu - Rəhbərlik ona tapşırıldı

***Xəbər verdiyimiz kimi, Rövşən Çingiz oğlu Nəcəf Azərbaycan Respublikası iqtisadiyyat nazirinin birinci müavini vəzifəsindən azad edilib. Bununla bağlı Prezident İlham Əliyev sərəncam imzalayıb. Dövlət başçısının digər sərəncamı ilə Rövşən Çingiz oğlu Nəcəf Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti təyin edilib.***

"Unikal"ın məlumatına görə, Rövşən Nəcəf 1982-ci il aprelin 9-da Bakı şəhərində anadan olub.

1997-ci ildə Azərbaycan Dövlət İqtisad Universitetinin Beynəlxalq iqtisadi münasibətlər fakültəsinə daxil olub, 2001-ci ildə bakalavr, 2003-cü ildə isə magistratura proqramını fərqlənmə ilə bitirib.

2007-2008-ci illərdə ARDNŞ-in təqaüd proqramı çərçivəsində ABŞ-ın Kolumbiya Universitetində təhsil alaraq, İqtisadi Siyasətin İdarəedilməsi/Beynəlxalq Enerji Menecment və Siyasəti üzrə magistr proqramını uğurla bitirib.

Əmək fəaliyyətinə 2001-ci ildə Azərbaycan Dövlət İqtisad Universitetinin Beynəlxalq iqtisadi münasibətlər və



marketinq kafedrasında laborant vəzifəsində başlayıb.

2003-2007-ci illərdə Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyinin İnvestisiyalar və beynəlxalq iqtisadi əməkdaşlıq departamentinin İnvestisiya siyasəti şöbəsində məsləhətçi və baş məsləhətçi vəzifəsində çalışıb.

2008-2009-cu illərdə ARDNŞ-in Sərmayələr İdarəsinin Sərmayələr üzrə Kontraktlar şöbəsinin rəisi vəzifəsində işləyib.

2009-2010-cu illərdə İqtisadi İnkişaf Nazirliyində Xarici iqtisadi əlaqələr şöbəsinin müdiri və iqtisadi inkişaf nazirinin köməkçisi olub.

2010-2018-ci illərdə "Azərbaycan İnvestisiya Şirkəti" ASC-nin icraçı direktorunun müavini və icraçı direktoru vəzifələrində çalışıb.

Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 11 may tarixli Sərəncamı ilə Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının İnnovativ inkişaf və elektron hökumət məsələləri şöbəsinin müdiri təyin edilib.

Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 28 avqust tarixli Sərəncamı ilə Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidmətinin İdarə Heyətinin sədri təyin edilib. Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 11 fevral tarixli Sərəncamı ilə Azərbaycan Respublikasının iqtisadiyyat nazirinin müavini, Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 23 dekabr tarixli Sərəncamı ilə iqtisadiyyat nazirinin birinci müavini təyin olunub.

İqtisadiyyat üzrə fəlsəfə doktorudur. 3-cü dərəcəli dövlət müşaviridir. Evlidir, 2 övladı var.

***Gülayə Mecid***

# Növbədə generallardır! - Ekspert "Tərtər işi"ndən danışdı

***"Tərtər işi" ilə bağlı məsələ 4 nəfərin həbsi ilə kifayətlənə bilməz. Düşünürəm ki, hətta yaxın günlərdə, bəlkə də yaxın saatlarda yeni həbslər barədə məlumat alacağıq. Hətta bu məsələdə bir neçə general da cəzalana bilər.***

"Unikal" xəbər verir ki, bu sözləri Bakupost.az-a hərbi ekspert Üzeyir Cəfərov "Tərtər işi" ilə bağlı hərbi qulluqçulara işgəncə verən şəxslərin həbs olunmasından danışarkən deyib.

Onun fikrincə, saxta qərarlar qəbul edən, heç bir məhkəmə araşdırması aparmadan, yalnız prokurorluğun təqdim etdiyi sənədlər əsasında saxta qərarlar çıxaran hakimlər də cəzalanacaq: "Əmin olun ki, həbslər bu gün də, sabah da olacaq. Çünki 163 yeni zərərçəkən artıq tanınıb. Bu, Azərbaycan dövlətinin gələcəyi ilə bağlı olan məsələdir. Buna hüquqi qiymət verilməsə, cinayət cəzasız qalsa, sabah çox pis presedent yarada bilər. Təkcə işgəncə verənlər deyil, istintaqı düzgün aparmayan müstəntiqlərin vəzifə səlahiyyətlərini aşdıqlarına görə cinayət məsuliyyətinə cəlb olunmasını, vəzifələrindən azad olunmasını xahiş və tələb edirəm. Eyni zamanda Azərbaycan dövləti adından saxtakarlıq edərək, saxta qərarlar çıxaran hakimlərin də Məhkəmə Hüquq Şurası tərəfindən hakimlikdən kənarlaşdırılması vacibdir. Gözləyirəm ki, bu məsələdə bir neçə general vəzifəsindən çıxarılacaq, bir neçə vəzifəli şəxs cinayət məsuliyyətinə cəlb olunacaq".

Ü.Cəfərov qeyd edib ki, "Tərtər işi" ilə bağlı 9 fevraldan başlanan həbslərin uzun müddət davamı olacaq: "Ola bilər ki, illərlə araşdırmalar aparılsın. Bu cinayətin özəlliyi ondan ibarətdir ki, faktiki olaraq burada kimlərsə, rütbə, vəzifə, orden və medallar almaq üçün dövlət səviyyəsində cinayətə yol verib. Bu cinayəti törədənlər ən sərt şəkildə cəzalanmalıdır".

# "Bu qətliamlar ən qanlı cinayətlərdəndir" - Tural Gəncəliyev

***Erməni quldurları tərəfindən törədilən Malıbəyli və Quşçular qətliamı Azərbaycan xalqına qarşı edilən ən qanlı cinayətlərdən biridir.***

"Unikal" xəbər verir ki, bunu Trend-ə Milli Məclisin deputatı Tural Gəncəliyev deyib. O bildirib ki, bu qanlı cinayət nəticəsində 50-ə yaxın dinc azərbaycanlı erməni quldurları tərəfindən vəhşicəsinə qətlə yetirilib.

"Təəssüf ki, erməni cinayətkarlığı, erməni qəsbkarlığı bununla bitməyib. O zaman Şuşa şəhərinin mühasirəyə alınması, mülki vətəndaşlara, mülki obyektlərə qarşı törədilən terror hadisələri zəncirvari şəkildə davam edirdi. 1991-ci ildə mühasirədə olduğu üçün Şuşaya gediş-gəliş yalnız vertolyot ilə mümkün idi və Şuşaya uçan sonuncu vertolyot isə yanvarın 28-də ermənilər tərəfindən vuruldu. Hava nəqliyyatının dayandırılması Şuşanın Malıbəyli və Quşçular kəndlərini də ağır vəziyyətdə qoymuşdu. Beləliklə, 1992-ci il fevral ayının 10-u gecə yarısı erməni silahlı quldurları kəndlərə hücum etdilər və orada olan insanlara qarşı qətliam törətdilər.Biz bu soyqırımı, Azərbaycanın dinc sakinlərinə qarşı törədilmiş qətliamı haç zaman unutmuruq, unutmayacağıq. Artıq torpaqlarımız işğaldan azad edilib və biz həmin insanlarını ruhunu daim yad etməliyik, onları xalqımızın qırılmaz ruhunun nümunəsi kimi təqdim etməliyik. 44 günlük Vətən müharibəsində qələbə ilə 30 ildən sonra tarixi ədalət bərpa olundu, qətlə yetirilən o günahsız insanların qanı yerdə qalmadı", - deyə T.Gəncəliyev əlavə edib.

# Yeni pensiya islahatlarına ehtiyac var

## Vüqar Bayramov: "Təklif edirik ki, vətəndaşların topladığı kapitalın bir hissəsi onun vərəsələrinin hesabına transfer edilsin"



***Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü, deputat Vüqar Bayramov "Unikal" qəzetinə müsahibə verib. O, pensiyalara edilən artımlar, bunun vətəndaşların sosial-rifahına təsiri və digər məsələlər barədə fikirlərini bölüşüb.***

***-Prezident İlham Əliyev "Əmək pensiyaçılarının sosial müdafiəsi sahəsində əlavə tədbirlər haqqında" Sərəncam imzalayıb. Sərəncamla pensiya məbləği və kapitalının indeksasiyası ilə yanaşı, əmək pensiyaçılarına rüblük yardımların edilməsi də nəzərdə tutulub. Pensiya artımları nə qədər olacaq?***

-Yardım COVİD-19 pandemiyasının, habelə beynəlxalq bazarlardakı qiymət artımlarının ölkədaxili infilyasiyaya və əmək pensiyaçılarının sosial rifahına mənfi təsirlərinin yumşaldılmasına xidmət edir. Belə ki, əmək pensiyasının məbləği 2021-ci ildəki orta aylıq məbləğə, pensiya kapitalı isə illik infilyasiya səviyyəsinə indeksasiya olunacaq. Ötən il orta aylıq əmək haqqı 3.4 faiz artıb, rəsmi infilyasiya səviyyəsi isə 6.7 faiz olub. Qeyd edək ki, indeksləşdirmə, yəni, artımlar bütün növ əmək pensiyalarına şamil olunur. "Əmək pensiyaları haqqında" qanunun 4-cü maddəsinə əsasən, əmək pensiyalarının 3 növü təsbit olunub. Bunlar yaşa görə əmək pensiyası, əlilliyə görə əmək pensiyası və ailə başçısını itirməyə görə əmək pensiyasıdır. Deməli, vətəndaşımız növündən asılı olmayaraq əmək pensiyası alırsa, onun pensiya məbləğinə artım hesablanacaq. Sənəddə əmək pensiyaçılarına il ərzində yardımın nəzərdə tutulması həmin vətəndaşlarımızın sosial təminatının gücləndirilməsi baxımından vacib addımdır. Həmin vəsait rüblər üzrə bölünməklə pensiyaçılara ödəniləcək və ilkin ödəniş fevral ayının pensiyaları ilə birgə veriləcək. Eyni zamanda, yanvar ayı üçün nəzərdə tutulan indeksasiya artımı da fevral ayının pensiyası ilə birlikdə ödəniləcək.

Son sərəncamda nəzərdə tutulan yardım orta pensiya alan vətəndaşlarımızın pensiya məbləğlərində artımlara təsir göstərəcək. Belə ki, 250 manat pensiya alan vətəndaşımızın pensiya məbləğinə aylıq olaraq orta hesabla 17 manata yaxın vəsait əlavə ediləcək. Bu, 250 manat pensiya alan vətəndaşımızın pensiya məbləğində 6.6 faiz artım deməkdir (17 manat/250 manat X 100.0%). İndeksasiya faizini də nəzərə aldıqda, bu 250 manat pensiya alan vətəndaşımızın pensiya məbləğinin son sərəncamla 10.0 faiz (6.6 % +3.4 %) artacağı anlamına gəlir. Nəzərdə tutulan yardım 300 manat pensiya alan vətəndaşımızın pensiya məbləğində isə 5.6 faiz artım deməkdir (17 manat/300 manat X 100.0%). İndeksasiya faizini də nəzərə aldıqda bu 300 manat pensiya alan vətəndaşımızın pensiya məbləğinin 9.0 faiz (5.6 % +3.4 %) artmasıdır.

Sənədlə bağlı Nazirlər Kabinetinə bir ay müddətində maddi yardımın 2023-cü il yanvarın 1-dən etibarən onun şamil edildiyi əmək pensiyaçılarının illik pensiyalarının tərkibinə daxil edilməsinə dair təkliflərini Azərbaycan Prezidentinə təqdim etməsi tapşırılıb. Eyni zamanda, sərəncam qulluq stajına görə əlavələrlə pensiya təyin edilmiş şəxsləri də əhatə edir. Belə ki, dövlət başçısı tərəfindən Nazirlər Kabinetinə bu kateqoriyadan olan pensiyaçıların pensiyalarının indeksləşdirilməklə artırılması, habelə 2022-ci il üzrə maddi dəstəyin göstərilməsinə dair təkliflərini 1 ay müddətinə təqdim edilməsi tapşırılıb. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin məlumatına görə, qulluq stajına görə əlavələrlə pensiya təyin edilmiş şəxslər 99 min nəfərdir və əsasən pensiyaya çıxmış hərbçilər, hüquq-mühafizə orqanlarının əməkdaşları, dövlət qulluqçuları və başqalarıdır. Yeni sərəncam isə bu şəxslərə də 2022-ci ildə dövlət dəstəyinin göstərilməsinə və ümumi pensiya məbləğlərinin hər il artırılmasına imkan yaradacaq.

***-Pensiya ilə bağlı hansı yeniliklərə və islahatlara ehtiyac var?***

-Təkliflərimi hökumətə təqdim etmişəm. Təkliflərimdən biri pensiya kapitalından digər məqsədlər üçün istifadə edilməsi ilə bağlı olub. Belə ki, mövcud qaydalara əsasən, vətəndaşlarımız öz yığımlarından yalnız pensiya almaq üçün istifadə edirlər. Amma bir sıra ölkələrdə pensiya kapitalından digər məqsədlər üçün də istifadə etmək hüququna malikdirlər. Məsələn, bəzi ölkələrdə yığımların üçdə biri kommunal xidmətləri ödəmək, kredit qaytarmaq və s. istiqamətlər üçün istifadə edilir.

Bəzi vətəndaşlarımızın pensiya kapitalı kifayət qədər böyük olur. Məsələn, pensiya yaşına çatmamış 200 min manatdan çox kapital olan vətəndaş həmin puldan yalnız pensiya almaq üçün istifadə edə bilir. Bu baxımdan, təklif edirik ki, vətəndaşa yığdığı pensiya kapitalının bir hissəsinin kommunal xidmət haqqının və ya kredit ödənişi kimi istifadə edilməsi hüququ verilsin. Əgər vətəndaş tələb olunan pensiya kapitalını toplayıbsa, o zaman əlavə vəsaitinin 30 faizinin başqa məqsədlər üçün istifadə etməsi məqsədəuyğun olardı. Yəni, əgər vətəndaşın 60 min manat pensiya kapitalı yığımları varsa, o zaman onun 18 min manatını kredit qaytarmaq, kommunal xidmətlərin pulunu ödəmək üçün istifadə etmək hüququna malik olması məqsədəuyğun olardı. Digər 42 min manat isə birbaşa pensiya ödənişləri üçün istifadə oluna bilər. Bu həm yığımlara marağı artırar, həm də qeyri-rəsmi məşğulluğun leqallaşdırılmasına səbəb ola bilər. Bu hal həmçinin pensiya yığımlarına marağı artıra və vəsaitin daha ünvanlı istifadəsinə imkan yarada bilər.

***-Vətəndaşın vaxtından əvvəl pensiyaya çıxması mümkün ola bilərmi?***

-Təkliflərimizdən biri də vətəndaşlara vaxtından əvvəl pensiyaya çıxmaq hüququnun verilməsidir. Belə ki, bir sıra hallarda vətəndaşlar kifayət qədər yüksək əmək haqqı olan sektorda (məsələn, neft, maliyyə və s.) çalışır və nisbətən böyük pensiya kapitalına malik olur. Amma pensiya kapitalından istifadə etmək üçün pensiya yaşının (hazırda kişilər üçün 65, qadınlar üçün 62 il 6 ay) gözləmək məcburiyyətində qalır. Təklifim isə həmin şəxslərə vaxtından əvvəl pensiyaya çıxmaq hüququnun verilməsi və onların öz kapitallarından daha uzun müddət istifadə imkanlarının tanıdılmasıdır. Beynəlxalq praktikada pensiya yaşı tamam olmadan bu hüquqdan istifadə imkanları var. Bəzi ölkələrdə bu hətta pensiya kapitalına bağlanır. Orta pensiya kapitalından çox yığımları olan insanlar artıq vəsaitini öncədən almaq hüququna malik olurlar və bu zaman extra (artıq) yığılmış vəsait aylar üzrə hesablanmaqla vətəndaşa qaytarılır. Məsələn, ABŞ-da pensiya kapitalı çox olanlar daha tez müraciət edib pensiya alma imkanına malik olurlar.

Digər metod isə pensiyada olan ayların sayının azaldılması və artırılması ilə bağlıdır. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində bu məsələ ilə bağlı artıq müzakirələr aparılır. Bu daha çox minimum pensiya kapitalı yığmış vətəndaşlara tətbiq edilə bilər. Mövcud qaydalara əsasən, 144 ay orta pensiya müddəti kimi götürülür. Yəni 12 il x 12 ay = 144 ay. Əgər təklif qəbul olunarsa, o zaman vətəndaş 65 yox, 60 yaşda pensiyaya çıxmaq istəyirsə, 144 deyil, bu halda həmin beş il üçün nəzərdə tutulan 144-ün üzərinə (5x12) 60 ay gələcək. Yığılmış pensiya kapitalı 204 aya bölünəcək. Bu imkan verə bilər ki, vətəndaş 5 il tez, yəni 60 yaşında pensiyaya çıxsın. Amma bu halda yığım 144-ə yox, 204-ə bölünməklə aylıq pensiya məbləği müəyyənləşə bilər.

***-Son zamanlar şəxs vəfat edərkən onun pensiya kapitalının taleyinin necə olacağı əsas müzakirə olunan məsələlərdən biridir. Vəfat edən şəxslərin vaxtilə topladığı pensiya kapitalından ailə üzvləri yararlana bilərmi?***

-Vaxtından əvvəl dünyasını dəyişən vətəndaşların yığdığı kapitalın bir hissəsinin vərəsələrə transfer edilməsi məsələsini təklif etmişəm. Mövcud qanunvericiliyə əsasən, həmin kapitaldan 18, əgər təhsil alırsa 23 yaşına qədər övladları, pensiya yaşında olan anası, atası, yoldaşı istifadə edə bilər. Belə olmadıqda isə həmin pensiya kapitalından istifadə olunmur. Ona görə də təklif edirik ki, həmin vətəndaşların topladığı kapitalın bir hissəsi onun vərəsələrinin hesabına transfer edilsin, onlar bu vəsaitdən istifadə etmək imkanına malik olsun.

***-Azərbaycanda özəl pensiya fondlarının yaradılması gözlənilirmi?***

-Bu, müzakirə olunan məsələlərdən biridir. Özəl pensiya fondları ilə bağlı ən vacib məqamlardan biri ondan ibarətdir ki, belə fondlar yaradılan zaman vətəndaşın seçim imkanı olur. Vətəndaş gəlirinin bir hissəsini özəl pensiya fonduna yönəltməklə gələcəkdə özəl pensiya fondundan da vəsait almaq imkanına malik olur. Bu, seçim imkanıdır. Eləcə də vətəndaşın gəlirlərinə bağlı olan bir məsələdir. Hazırda özəl pensiya fondlarının yaradılması gündəmdədir. Bununla bağlı xüsusi mexanizm hazırlandıqdan sonra Azərbaycanda da özəl pensiya fondlarının yaradılmasına başlanılacaq.

***Anar Kəlbiyev***

# Bakının ictimai nəqliyyatının aqibəti...

## BNA-nın BŞİH-ə birləşdirilməsindən sonra genişmiqyaslı yoxlamalar başlayacaq - Kimləri bəd sürprizlər gözləyir?

***Yola salmaq üzrə olduğumuz həftə Bakı Nəqliyyat Agentliyi (BNA) ilə bağlı çoxdan gözlənilən qərar verildi və onun müstəqil qurum kimi ləğvi prosesi başladı.***

Belə ki, prezidentin imzaladığı “Bakı şəhərinin inzibati ərazisində nəqliyyat sahəsində idarəetmənin təkmilləşdirilməsi haqqında” fərmanla Bakı Nəqliyyat Agentliyi publik hüquqi şəxs statusu ilə Bakı Şəhər İcra Hakimiyyəti başçısının tabeliyinə verilib.



Qeyd edək ki, Bakı Nəqliyyat Agentliyinin fəaliyyəti artıq uzun müddətdir ictimaiyyətin ciddi narazılığı ilə müşayiət olunur. Tıxacların qarşısını ala bilməyən, yalnız kosmetik işlərlə məşğul olan bu qurumun son zamanlar qeyri-şəffaf fəaliyyəti də hökumətin ciddi reaksiyasına səbəb olub. Təsadüfü deyil ki, BNA-nın daxilində olan ən böyük qurum - “Baku Bus” MMC qurumdan alınaraq, İnvestisiya Holdinqinə verildi və “Baku Bus” MMC-nin Müşahidə Şurası yaradıldı. Müşahidə Şurasının yaradılması isə bu qurumun maliyyə əməliyyatları ilə bağlı ciddi şübhələrdən irəli gəlir.

BNA-nın illik gəlirləri barəsində açıqlaması da ictimaiyyət və ekspertlər tərəfindən birmənalı qarşılanmayıb. Xüsusilə Agentliyin keçirdiyi şübhəli tenderlər, sürücülər üçün uniformaya həddən artıq şişirdilmiş məbləğ xərclənməsi medianın və televiziyaların tənqidinə səbəb olub.

Prezident BNA-nı yaradarkən onun qarşısında duran vəzifələri səsləndirmiş və ən əsası da Bakıda parkinq məsələsinin təəcili həll edilməli olduğunu bildirmişdi. Ölkə başçısının 2018-ci il 6 iyul tarixli fərmanı ilə BNA-ya parklamaya nəzarət, idarəetmə və daxil olan vəsaitdən istifadə ilə bağlı qaydalar da müəyyən etmək tapşırılmışdı. Prezidentin etimadı ilə yanaşı cəmiyyət tərəfindən də BNA-ya inam formalaşmış, hətta bu işin qurulmasına dəstək də ifadə edilmişdi. Ancaq ümidlər özünü doğrultmadı. Nəticədə cərimələrin sayının və qiymətlərin çoxaldığı müşahidə olundu ki, bu da zaman-zaman cəmiyyətin müxtəlif təbəqələrində təmsil olunan şəxslər tərəfindən açıq bir dillə təndiq olundu.

İddialar bu yöndədir ki, BNA-nın BŞİH-ə birləşdirilməsi prosesi başa çatdıqdan sonra qurumda genişmiqyaslı yoxlamalar başlayacaq. Bu yoxlamaların nəticəsinə uyğun olaraq da, Agentliyin rəhbəri Vüsal Kərimlinin taleyinə aydınlıq gətiriləcək.Yəni onun öz vəzifəsində qalıb-qalmayacağı aydınlaşacaq.

Həmçinin korrupsiya yoxlamalarının bu qurumdakı bir sıra digər vəzifəli şəxslərə bəd sürprizlər hazırlaması da istisna olunmur.

Konkret olaraq indiki rəhbər şəxsə gəlincə... Düzünə qalsa, Vüsal Kərimlinin vəzifəsində saxlanılması bir o qədər də ağlabatan proqnoz deyil. Ekspertlərin fikrincə, BNA rəhbəri öz vəzifəsinin öhtəsindən gələ bilsəydi, bu qurumun BŞİH tabeliyində huquqi-publik şəxsə çevrilməsinə ehtiyac qalmazdı. Əgər hökumətdə Bakı Nəqliyyat Agentliyinin effektiv və şəffaf fəaliyyətini təmin etmək istəyi yüksəkdirsə, buna V.Kərimli ilə nail olmağın mümkünsüzlüyü ötən illər ərzində aydın ortaya çıxıb. Üstəlik, BNA- da korrupsiyanın, özbaşınalığın mövcudluğu barədə yalnız geniş ictimaiyyət danışmır, yalnız media yazmır, elə müstəqil ekspertlər və Milli Məclis üzvləri də bu qurumun ünvanına çox kəskin tənqidlər, iddia və ittihamlar səsləndirirlər. Belədə Agentliyin bundan sonra da yoluna Vüsal Kərimli ilə davam etməsi heç bir müsbət perspektiv vəd eləyə bilməz.

Ekspertlər də vurğulayırlar ki, Bakı Nəqliyyat Agentliyinin barəsindəki fərman əslində BŞİH tabeliyində BNA-nın fəaliyyət istiqamətlərinin əsas konturlarını qismən də olsa, göstərir:

1) Bakı şəhərinin inzibati ərazisində yol hərəkətinin təşkili sahəsində həyata keçirilən fəaliyyət;

2) Ümumi istifadədə olan nəqliyyat vasitələri ilə müntəzəm sərnişindaşıma sahəsində həyata keçirilən fəaliyyət;

3) Taksi minik avtomobilləri ilə sərnişindaşıma sahəsində həyata keçirilən fəaliyyət.

Sözsüz ki, söhbət bu sahələrdə həyata keçirilən fəaliyyətin ümumi təşkilindən və dövlət adından idarə edilməsindən gedəcək. Belə olan halda indiyədək BNA-nın ona göstərilən etimadı doğrultmamasının əsas səbəbkarı kimi göstərilən qurum rəhbərini öz postunda saxlamaq hansı məntiqə uyğundur?!

Cəmiyyətdə danışılanlardan, mediada yazılanlardan belə anlaşılır ki, BNA-dakı korrupsiya yoxlamalarının əsas istiqaməti bu qurumun keçirdiyi tenderlərlə bağlıdır. Həmin tederlərin obyektivliyi, şəffaflığı ilə bağlı şübhələr olduqca ciddidir. Belədə bundan sonrakı tenderlərin ədalətliliyinə inanmaq mümkündürmü?

Göründüyü kimi, ictimai rəydə, mediada dolaşan suallar, iddialar kifayət qədər ciddidir. Bu suallara ən doğru cavabı isə yaxın gələcək göstərəcək. Odur ki, gözləyək...

***Toğrul Əliyev***

# İnam Kərimov Moldova nümayəndə heyətini qəbul etdi



***Kənd Təsərrüfatı Nazirliyində Azərbaycanda səfərdə olan Moldova Respublikasının Baş nazirinin müavini, xarici işlər və Avropaya inteqrasiya naziri, Azərbaycan-Moldova iqtisadi əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiyanın həmsədri Niku Popeskunun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüş keçirilib.***

”Unikal” xəbər verir ki, qonaqları salamlayan Azərbaycan Respublikasının kənd təsərrüfatı naziri, Azərbaycan-Moldova iqtisadi əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiyanın həmsədri İnam Kərimov iki ölkə arasında bütün sahələrdə əməkdaşlığın dinamik inkişaf etdiyini bildirib. Qeyd edib ki, Moldova Azərbaycanla tərəfdaş və dost ölkədir. Ölkəmiz iki dövlət arasında bütün sahələrdə əməkdaşlığı gücləndirmək istiqamətində təşəbbüsləri dəstəkləyir. Nazir İnam Kərimov Azərbaycanda etibarlı və əlverişli biznes mühitinin olduğunu xatırladaraq, moldovalı sahibkarları Azərbaycanda investisiya imkanlarını dəyərləndirməyə çağırıb.

Bildirilib ki, iki ölkənin regionları arasında qarşılıqlı əlaqələrin gücləndirilməsini, ixrac potensialı yüksək olan məhsullar haqqında informasiya mübadiləsinin aparılması, birgə müəssisələrin yaradılması, Moldovanın Azərbaycanın həyata keçirdiyi nəqliyyat infrastrukturu layihələrinə inteqrasiya imkanlarının araşdırılması əməkdaşlığın əsas istiqamətləri ola bilər.

Səmimi qəbula görə təşəkkürünü bildirən Niku Popesku Moldovanın Azərbaycanla dost ölkələr olduğunu, bütün sahələr üzrə tərəfdaşlıq münasibətlərini inkişaf etdirməyə maraq göstərdiyini deyib. İclasda iki ölkənin enerji məsələləri, mədəniyyət, təhsil və turizm sahəsində əməkdaşlıq imkanları da müzakirə olunub.

Tərəflər Azərbaycan və Moldovanın kənd təsərrüfatı sahəsində tərəfdaşlığı genişləndirmək üçün böyük potensialın olduğunu vurğulayıblar. Bildirilib ki, kənd təsərrüfatı sahəsində müasir texnologiyaların transferi, elmi-tədqiqatların aparılması, aqrar sahədə mütəxəssis hazırlığı və aqrar məhsulların ixracı Azərbaycanla Moldovanın kənd təsərrüfatı sahəsində əməkdaşlığının əsas istiqamətləri ola bilər.

Azərbaycan-Moldova iqtisadi əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiyanın üçüncü iclasının 2012-ci ildə Kişinyovda keçirildiyi bildirilib, növbəti iclasın bu il Bakıda keçirilməsi barədə ilkin razılıq əldə olunub. İclas çərçivəsində Azərbaycan və Moldova iş adamlarının iştirakı ilə Biznes Forumun keçirilməsi təklifi də məqbul sayılıb.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər də müzakirə edilib.

# Orqan transplantasiyası ilə bağlı Koordinasiya Mərkəzi yaradılıb

***Azərbaycanda insan orqan və toxumalarının transplantasiyası ilə bağlı Səhiyyə Nazirliyinin nəzdində Koordinasiya Mərkəzi yaradılıb.***

“Unikal” xəbər verir ki, bunu səhiyyə naziri Teymur Musayev keçirdiyi birifnqdə deyib.

Nazir bildirib ki, bununla bağlı orqanların idxal və ixracı, donorların reyestri nəzərdə tutulub: “Artıq əsasnamə də təsdiq olunub və Nazirlər Kabinetinə göndərilib. Mərkəzin yerləşəcəyi yer də məlumdur. Orada son hazırlıq işləri görülür. Mərkəzin nəzdində Etika komissiyası da fəaliyyət göstərəcək. Qeyd edim ki, bu məsələdə ictimai nəzarət çox güclü olacaq. Burada QHT, hüquq mühafizə, səhiyyə qurumlarının nümayəndələri olacaq. Mərkəz şəffaf şəkildə fəaliyyət göstərəcək. Hazirda 14 müəssisənin orqan köçürülməsini həyata keçirməsi üçün lisenziyası var. Amma bu müəssisələr akkreditasiyadan da keçdikdən sonra transplantasiya ilə məşğul olan mərkəzlər reyestrinə daxil olacaq”.

Nazir qeyd edib ki, orqan köçürülməsinin icbari tibbi sığorta sisteminin xidmətlər zərfinə daxil edilməsi istiqamətində İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyində də işçi qrupu var, məsələlər müzakirə olunur:

”Ümid edirik ki, yaxın gələcək üçün orqan köçürülməsi xidmətlər zərfinə daxil ediləcək”.

## “Ali təhsili olmayan reyestrə daxil olmur” - Əhməd İsmayılov



***“Media Reyestrinə daxil olmaq üçün jurnalistlərə 3 il staj və ali təhsilin olması tələb kimi qoyulub”.***

“Unikal” xəbər verir ki, bu barədə Medianın İnkişafı Agentliyinin icraçı direktoru Əhməd İsmayılov İTV-də “Diqqət mərkəzi” verilişində bildirib.

Onun sözlərinə görə, eyni zamanda jurnalist etikasına riayət edilməsi məsələsi də vacibdir.

“Amma qeyd edim ki, ali təhsilin olması Media Reyestrinə düşmək üçün tələbdir, bu jurnalistika fəaliyyəti ilə məşğul olmaq üçün tələb deyil. Ali təhsiliniz olmadan da jurnalist fəaliyyəti ilə məşğul ola bilərsiniz, buna qanunveicilikdə heç bir məhdudiyyət qoyulmayıb. Lakin reyestre düşmək müəyyən daha üstün imtiyazlardan istifadə etmək üçündür”.

Ə. İsmayılov bildirib ki, vahid Media Reyestrinə jurnalistlər öz istəkləri ilə müraciət edib daxil ola bilərlər. Bu reyestrə daxil olmayan jurnalistin jurnalistika fəaliyyəti ilə məşğul olması, informasiya alması ilə bağlı hər hansı məhdudiyyət qoyulmayıb. Qanunda belə müddəalar mövcud deyil, reyestrdə olmayan jurnalistlər də informasiya almaq, yaymaq hüququna malikdirlər.

Agentlik rəsmisi həmçinin jurnalistlər üçün olan güzəştləri də sadalayıb:

“Artıq güzəştli ipotekadan jurnalistlərimiz də yararlana biləcəklər, biz jurnalistlər də bu siyahıya əlavə edilmişik. Bu imtiyazlardan istifadə edən jurnalistlərimiz həm də tələblərə uyğun olmalıdırlar. 5 ildən yuxarı olan jurnalist işləyən gənc ailə üzvü və 15 ildən yuxarı stajı olan jurnalistlərimizin bu güzəştdən yararlanmaq hüququ var. İpotekanın verilməsi isə ailənin büdcəsilə hesablanır, tək fərdin əmək haqqı ilə yox. Güzəştli olması o deməkdir ki, daha aşağı əmək haqqı alan kateqoriyada olan insanlar bundan istifadə etsinlər. Prezidentin fərmanı ilə jurnalistlər də bu kateqoriyaya aid edilib. ”Media haqqında” Qanunun müddəaları bizə imkan verir ki, gələcəkdə də güzəştlərlə bağlı layihələrlə çıxış edək”.

Jurnalistlərin rəsmiləşdirilmədən fəaliyyət göstərməsinə gəlincə isə, Ə. İsmayılov bildirib ki, ancaq qanunvericilikdə olan münasibətlərdən danışa bilərik. Jurnalistlər qanunvericilikdən kənar, rəsmiləşdirilmədən fəaliyyət göstərilibsə, bu məsələnin həlli MEDİA Agentliyinin səlahiyyətində deyil.

Qeyd edək ki, güzəştli ipoteka kreditindən yalnız Media Reyestrinə daxil edilmiş şəxslər yararlana biləcəklər.

## Pandemiya ilə bağlı yeni dövlət standartı qəbul olunub

***Yeni növ koronavirus (COVID-19) infeksiyasına yoluxma hallarına qarşı görülən preventiv və profilaktik tədbirlərin keyfiyyətinin daha da yüksəldilməsi və beynəlxalq tələblərə uyğunlaşdırılması məqsədilə ISO/PAS 45005:2020 beynəlxalq standart əsasında AZS ISO/PAS 45005:2022 “Peşə sağlamlığı və təhlükəsizliyi idarəetmə sistemləri - COVID-19 pandemiyası zamanı təhlükəsiz işləmək üzrə ümumi rəhbərlik” yeni dövlət standartı qəbul olunub.***

Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətindən ”Unikal”a verilən məlumata görə, “Keyfiyyət Assosiasiyası” İctimai Birliyinin dəstəyi ilə hazırlanan yeni standartın layihəsi t Xidmətin tabeliyində olan “Azərbaycan Standartlaşdırma İnstitutu” publik hüquqi şəxs (AZSTAND) tərəfindən təsdiqlənib və standartlaşdırma üzrə normativ sənədlərin Dövlət Fonduna daxil edilib.

Yeni standartın tətbiqi pandemiya dövründə müəssisələrdə təhlükəsiz iş mühitinin yaradılması ilə yanaşı, onların davamlı və səmərəli fəaliyyət göstərməsinə xidmət edəcək.

# Vilyam Hacıyevin tövbəsi, yoxsa son ümid yeri...

### Korrupsiyaya bulaşanlar ibadətə başlamaqla nəyə ümid edirlər?

***Yola salmaq üzrə olduğumuz həftə korrupsiyada ad çıxarmış daha bir keçmiş məmurun - İmişli rayonunun həbsdə olan sabiq icra başçısı Vilyam Hacıyevin dəmir barmaqlıqlar ardında ibadətə başladığı məlum oldu. Yerli KİV-in yazdığına görə, hazırda Bakı İstintaq Təcridxanasından Penitensiar Xidmətin Müalicə Müəssisəsinə köçrülən V.Hacıyev namaz qılır.***

O, müəssisədə olanlara hər zaman islam dininə bağlı olduğunu, sadəcə işlərinin çoxluğu ucbatından ibadət üçün vaxt ayıra bilmədiyini deyib. Hətta dinə bağlı olduğunu sübut etmək üçün vaxtilə Göygöl rayonunda məscid tikdirdiyini də bildirib.



Burada kiçik bir haşiyə çıxaq: İmişli rayonunun sabiq rəhbəri vəzifəsini (eləcə də azadlığını!) itirdikdən sonra ibadətə başlayan ilk eks-məmur deyil. Məsələn, bundan əvvəl İşgəncələrə Qarşı Azərbaycan Komitəsinin rəhbərliyi Dövlət Təhlükəsizliyi Xidmətinin Saxlanma Yeri və İstintaq Təcridxanasına başçəkmə həyata keçirmiş, ardınca isə komitə sədri Tural Hüseynov mətbuata açıqlamasında demişdi ki, saxlanılanlardan Şəmkir rayonunun sabiq icra başçısı Alimpaşa Məmmədov şeir yazır, idmanla məşğul olur, iqtisadi sahədə layihələr yazır, azadlığa çıxdıqdan sonra həmin layihələri reallaşdırmaq istəyir və...

Və namaz qılır!

Yaxud: yüz milyonlarla manat dövlət vəsaitini talan edərək özünə, ailə üzvlərinə nəhəng biznes imperiyası quran, fantastik sərvət toplayan sabiq nəqliyyat naziri Ziya Məmmədovun da bir müddət öncə ibadətlə məşğul olduğu, Ramazan ayında oruc tutduğu, mütəmadi olaraq Quranı mütalie etdiyi, namaz qıldığı bildirilmişdi. Eks-nazir özü də sonradan KİV-ə açıqlamasında bu iddiaları təsdiqləmişdi.

Siyahını uzatmaq da olar. Lakin gərək yoxdur. Bu yazdıqlarımıza bircə onu əlavə etmək istərdik ki, vəzifədə olarkən büdcə vəsaitlərinə, dövlətin və xalqın puluna yan gözlə baxan, onları talayıb oliqarxa çevirilən vəzifə sahibləri postlarını itirdikdən, həbsə düşdükdən sonra ibadətə başlamaqla hansı mesajı verirlər: əməllərindən peşman olub tövbə etdiklərini göstərmək istəyirlər, yoxsa özlərini camaata acıtmaq məqsədimi güdürlər? Doğrudanmı, bir gün haqq-ədalət divanı qarşısında cavab verəcəkləri bu məmurların yadına düşmürdü? Doğrudanmı, onlarda Allah qorxusunun yaranması üçün illər uzunu yayxanıb oturduqları kreslolarını itirmək lazım idi? Və doğrudanmı, bu eks-vəzifəlilər elə düşünürlər ki, post sahibi olduqları illərdə vətəndaşların problemlərini həll etmək, dövlətin siyasətini layiqincə yerinə yetirmək əvəzinə şəxsi maraqlarına qulluq edib günlərin bir günü ibadətə başlamaqla bütün günahlarını yuya biləcəklər?! Əgər belədirsə, çox nahaq yerə ümidlənirlər: nə dövlətin qanunlarından, nə də ilahi qanunlardan qaçacaq yerləri yoxdur. Ölkə rəhbərliyinin onlara göstərdiyi etimadı yerinə yetirməkdən, xalqın problemlərinə, qayğılarına əncam çəkməkdənsə özlərinin, ailə üzvlərinin, qohum-əqrəbalarının mənfəətlərinə xidmət eləməyin cəzası asanlıqla yüngülləşə bilməz...

Konkret olaraq Vilyam Hacıyevə gəlsək, haqqında saysız-hesabsız korrupsiya, rüşvət iddiaları, ittihamları olan, yüzlərlə vətəndaşa qarşı hər cür qanunsuzluğa imza atan, axırda da həbsxananın yolunu tutan İmişlinin sabiq icra başçısının yenicə qandallandığı vaxtlarda dedikləri yadınızdadır? ”Hər şey yaxşı olacaq. Bu günlər keçəcək. Haqq yerini tapacaqg” - bu sözləri V.Hacıyev hələ haqqında həbs qətimkan tədbiri seçildikdən sonra məhkəmə qarşısında yaxınlarına xitabla demişdi.

Həmin vaxt bu KİV-də və ictimai rəydə onun kimlərə və yaxud nələrəsə arxayınlığı kimi yozulmuşdu. Belə güman olunurdu ki, V.Hacıyev həbsdə çox qalmayacağına inanır və bu zaman naməlum himayədarının, yaxud himayədarlarının hər hansı formada yardımına ümid edir. Lakin sabiq icra başçısının həmin ümidi sonradan verdiyi apellyasiya şikayətlərinin ardından boşa çıxmış, onun barəsində həbs qətimkan tədbirinin dəyişdirilməsi barədə şikayətləri rədd olunmuşdu.

Bu isə onu göstərirdi ki, rüşvət və korrupsiyaya bulaşan yüksək vəzifəlilərin hansısa vasitələrlə qısa zamanda ”sudan quru çıxacaqlarına” ümid etmələri, azadlıqlarına qovuşacaqlarına inam bəsləmələri mənasızdır.

Ölkə başçısı da bir sıra çıxışlarında açıq şəkildə vurğulayıb ki, hansısa məmur kimlərəsə arxayın olub, arxalanıb özünü toxunulmaz hesab edirsə yanılır. Dövlət rəhbəri, eyni zamanda, korrupsiyaya bulaşmış heç bir məmurun toxunulmaz olmadığını da bəyan etmişdi. V.Hacıyevin timsalında bu deyilənlər növbəti dəfə təsdiqləndi. Bir daha məlum oldu ki, heç bir korrupsioner, rüşvətxor məmur qanunsuz əməllərini müxtəlif yollarla, vasitələrlə, yaxud vasitəçilərlə pərdələyəcəyinə bel bağlayır, cəzasız qalacağına, cəzadan qurtulacağına inanırsa kökündən yanılır. Necə deyərlər, artıq dəmlər o dəmlər deyil...

Hətta ibadətə baş vurmaları da korrupsioner məmurların köməyinə çata bilməz!

***Sənan Mirzə***

# Tağı Əhmədovun səhhət müamması...

## Bakı Metropoliteninin sabiq rəisi "Fazil Məmmədov taktikası"ndan yararlanmaq istəyir?

***Bu həftə ölkə mediasında adı ön plana çıxanlardan biri də Bakı Metropoliteninin sabiq rəisi Tağı Əhmədov oldu.***

Elektron mediada yazılanlara görə, vaxtilə 3 milyon dolları MTN generalı Akif Çovdarov tərəfindən əlindən alınan, daha sonra 2 milyon manatı sələmə verib dələduzlara yem eləyən Tağı Əhmədov YAP-ın Yasamal rayon təşkilatının binasında adam döymədiyini bildirir. Amma eyni zamanda əlavə edir ki, "döyübsə də yaxşı eləyib döyüb".

Bilənlər artıq bilir, bilməyənlərin də agahı olsun ki, Tağı Əhmədov dostu, professor Soltan Əliyevin vasitəsilə 2 milyon manatı kimdir".

Bəs necə olub ki, Tağı Əhmədov 2 milyon manatı sələmə verib və bu pullar batıb? Açığı, bu barədə uzun-uzadı bəhs eləməyə ehtiyac görmürük. İnternetdə Tağı müəllimin adı ilə sələm sözlərini yanaşı yazıb axtarışa vermək kifayətdir ki, bu barədə qarşınıza yetərincə müfəssəl məlumat çıxsın. Üstəlik, axı bizim mövzumuz heç sabiq "metro şefi"nin milyonlarını sələmə verib batırması da deyil. Mətləb başqadır.

Tağı müəllim sələm skandalı ilə bağlı məhkəməyə gedib-getməyəcəyi suala belə cavab verib: "Xeyir. Yox, yox. Mən ora gedə ha çox etibar edir?

Əlbəttə, biz sabiq "metro rəisinin" sağlamlığındakı problemləri tamamilə şübhə altına almaq fikrində deyilik. Üstəlik, ona sağlamlıq da arzulayırıq. Lakin bu xəbərin sələm skandalının böyüməsi ilə üst-üstə düşməsinə də məntiqli izah tapmaq çətindir.

Sabiq Vergilər naziri Fazil Məmmədovun da vəzifədən uzaqlaşan və barəsində hüquqi ölçü götürüləcəyinə dair məlumatlar yayılan kimi səhhətində kəskin problemlər yaranmışdı. Məhz həmin problemlər də onun həbsi barədə proqnozların reallaşmasına imkan vermədi.

İndi isə Tağı Əhmədovun cavab verməsi gərəkən önəmli suallar var. Məsələn, o cavab verməlidir ki, MTN generalı Akif Çovdarov tərəfindən əlindən alınan 3 milyon dolları, sələmə verdiyi 2 milyon manatı necə, haradan qazanıb? Bir məmurda bu qədər pulun olması normaldırmı? Tağı müəllim həmin pulların korrupsiya, dövlət vəsaitlərini talama, metropolitenin büdcəsini, gəlirlərini mənimsəmə yolu ilə əldə etmədiyini necə isbatlaya bilər?



ayda 30 min manat sələm almaq şərtilə mərmər biznesi ilə məşğul olan Səadət Xəlilov, Qulu Muxtarova və Sahil Abuşova verib. Amma cəmi bir ay faiz alandan sonra pulların batdığını öyrənib. Və iddialara görə, həmin Səadət Xəlilovu YAP-ın Yasamal rayon təşkilatının binasında döyüb. İndi dələduzluqda təqsirləndirilən həmin şəxslərin məhkəməsi gedir, zərərçəkən qismində isə professor Əliyev tanınıb. Elə Tağı Əhmədovun YAP-ın binasında Xəlilovu döyməsi də ötən məhkəmə prosesində təqsirləndirilənlərin vəkilləri tərəfindən gündəmə gətirilmişdi. Bildirilirdi ki, Tağı Əhmədov özü də istintaqda bununla bağlı dindirilib.

Hazırda onurğa xəstəliyindən əziyyət çəkən, hərəkət qabiliyyətini itirən Tağı Əhmədov isə bu iddia haqda mətbuata açıqlamasında belə deyib: "Heç kəsi döyməmişəm. Döysəm də, düz etmişəm. Amma düzünü bilmək istəyirsinizsə, döyməmişəm. Özü də mənim onunla nə işim var? Heç onu tanımıram və bilmirəm də bilmərəm. Buna səhhətim də heç cür imkan vermir".

Bəli, mətləbimiz, eyni zamanda məsələnin ən maraqlı məqamı da budur. Necə olur ki, ilin müəyyən hissəsində istirahət üçün uzaq Dubaya gedə bilən Tağı müəllimin səhhəti buradan bura məhkəməyə getmək imkanı vermir? Doğrudanmı, adı ətrafında ciddi bir qalmaqalın yaşandığı vaxtda keçmiş "metro şefi"nin yeriyə bilmədiyi, ayaqlarının tutulduğu barədə xəbərlərin dövriyyəyə buraxılması təsadüfdür?

T.Əhmədovun "Ömür" klinikasında müayinə və müalicə edildiyi bildirilir. Amma...

Amma məsələ burasındadır ki, həmin klinika elə keçmiş "metro şefi"nin özünə məxsusdur. Belədə isə müəyyən suallar ortaya çıxır. Məsələn, səhhətindəki problemlərin kifayət qədər ciddi olduğu bildirilən Tağı müəllim müayinə və müalicə üçün nə səbəb ölkə xaricinə yollanmır? Bəlkə pulu yoxdur?! Yoxsa o, öz klinikasının həkimlərinə Türkiyə, Almaniya, İsrail həkimlərindən da-

Bir sözlə, suallar yetərincədir. Üstəlik, onların cavablandırılması qaçılmazdır. Özü də hüquq qarşısında!

Lakin belə bir vaxt gəlib çatanda Fazil Məmmədov kimi Tağı Əhmədovun da səhhəti ilə bağlı iddialar, informasiyalar ön plana çıxırsa, adam oturub dərin-dərin düşünməyə bilmir.

Yəqin ki, arif oxucular nə söyləmək istədiyimizi anladılar. Elə isə, zəhmət olmasa, qoy anlayanlar anlamayanlara anlatsınlar. Bizdən bu qədər...

***Toğrul Əliyev***

# Ali məktəblərdə qış tətilinin müddəti uzadılsın - TƏKLİF

***Koronavirusun "Omikron" ştamının epidemiyası ölkəmizdə bir aydan artıqdır ki, davam edir və yoluxma pik həddinə çatmaqdadır.***

"Unikal" xəbər verir ki, bunu Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev deyib.

Komitə sədri bildirib ki, "Omikron" ştamı yüngül klinik əlamətlərlə, az ağırlaşma ilə müşahidə olunsa da, yüksək yoluxuculuq xassəsi ilə fərqlənir, remissiya dövrü qısadır, az vaxtda çoxlu sayda insanların yoluxmasına səbəb olduğundan iş və tədris rejiminin pozulmasına səbəb olur:

"Buna görə də "Omikron" infeksiyasının geniş yayılmasının qarşısının alınması dünyada sərt lokdaunla deyil, lokal qapanmalarla daha effektiv hesab edilir. Azərbaycanda belə lokal qapanmaları ayrı-ayrı orta məktəblərdə, siniflərdə və uşaq bağçalarında görürük. Ali məktəblərdə qış tətili fevralın 15-də bitir. Yeni təhsil sessiyasının başlanması "Omikron" ştamı epidemiyasının pik dövrünə təsadüf etdiyindən gələn həftələr içərisində yeni alovlanma ilə qarşılanma təhlükəsi yox deyildir. Bir qrupda, fakültədə, kursda onlarla tələbənin və müəllimin yoluxma ehtimalı olduqca yüksəkdir. Hər yoluxan şəxsin və onunla yaxın təmasda olanların azı 1 həftəlik izolyasiyası əyani təhsil prosesinin bir çox universitet və kolleclərdə pozulmasına səbəb olacaq, üstəlik infeksiya auditoriyalardan evlərə daşınacaqdır.

Bunun dərman, müalicə xərclərini, bərpa dövründə tələbənin təhsilalma keyfiyyətinin də aşağı düşəcəyi ehtimalları nəzərə alanda qarşılaşacağımız çətinliyin miqyasının daha da böyüyə biləcəyini söyləmək mümkündür. Yuxarıda qeyd edilənləri nəzərə alaraq təklif edirəm ki, təhsil müəssisələrində qış tətiinin müddəti 7-10 gün uzadılsın, yaxud yaz sesiyasının dərsləri fevral ayının sonuna kimi yalnız onlayn qaydada keçirilsin. Lazımi lokal qapanma, vaksinasiya və qorunma tədbirlərini həyata keçirməklə yaxın 10-15 gündə "Omikron"un yoluxma intensivliyinin enişini müşahidə edə biləcəyik".

***Anar Kəlbiyev***

# Çavuşoğlu Azərbaycana səfər edəcək

***Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu Azərbaycana səfər edəcək.***

"Unikal" xəbər verir ki, o, bu barədə TRT telekanalına müsahibəsində məlumat verib.

Nazir bildirib ki, səfər azərbaycanlı həmkarı Ceyhun Bayramovun dəvəti əsasında baş tutacaq: "Ən qısa zamanda Bakıya gedəcəyəm. Həmkarım, Ceyhun qardaşım dəvət edib. Onsuz da xüsusi nümayəndələr görüşür, amma biz də fikir mübadiləsi aparacağıq".

# "Qaynar Xət"də kimin zənginə cavab verilmirsə..." - Nazir

***"Qaynar Xət"də kimin zənginə cavab verilmirsə, səbrli olaraq yenidən zəng vurmasını tövsiyə edirəm".***

"Unikal" xəbər verir ki, bunu səhiyyə naziri Teymur Musayev bu gün keçirdiyi brifinqdə deyib.

Onun sözlərinə görə, Səhiyyə Nazirliyinə şikayətlə bağlı daxil olan hər bir müraciət qeydə alınır və təhlil olunur: "Məsələ tam dərindən öyrənilir. Vətəndaş məmnunluğunun təmin etmək üçün bütün lazımi addıtlar atılır".

Nazir həmçinin pandemiya dövründə edilən şikayət çoxluğuna da aydınlıq gətirib: "Nəzərə almaq lazım idi ki, pandemiya bütün dünya üçün yeni bir sınaq idi. Təbii ki, bütün şikayətlər araşdırılır. Misal olaraq, Bakı üzrə poliklinikaların nəzdində 41 məntəqə fəaliyyət göstərir. Onlar da test götürməklə məşğuldurlar. Son zamanlar koronavirusun yeni ştamı olan "Omikron"un yoluxuculuq qabiliyyətinin yüksək olmasından yoluxma sayları kəskin sürətdə artır. Bu da istər-istəməz şikayətlərin sayına təsirsiz ötüşmür. Qeyd edim ki, tibb işçiləri axşam saat 9-a kimi işləyir. Ona görə də əhalinin bu məsələdə anlayışlı olmağa səsləyirəm. Amma istənilən halda "Qaynar Xətt"ə daxil olan bütün zənglər cavablandırılır. Kimin zənginə cavab verilmirsə, səbrli olaraq yenidən zəng vurmasını tövsiyə edirəm".

## Bu xəstəxanalarda işləməyən həkimlərə maaş verilib

***Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi publik hüquqi şəxsin Qusar və Ağdam rayonlarının mərkəzi xəstəxanalarında aparılan nəzarət tədbirləri zamanı "İcbari tibbi sığorta üzrə xidmətlər zərfi"nə daxil olmayan tibbi xidmətlərdən daxil olan vəsaitin xəstəxananın kassasına mədaxil edilmədiyi, cari və əsaslı təmir işlərinin həcmlərinin artırıldığı və podratçı təşkilatlara artıq büdcə vəsaitinin ödənildiyi müəyyən olunub.***

"Unikal" xəbər verir ki, bu barədə Maliyyə Nazirliyinin Dövlət Maliyyə Nəzarəti Xidməti məlumat yayıb.

Bildirilib ki, işə davamiyyəti olmayan, yəni faktiki olaraq işləməyən işçilərə, o cümlədən həkimlərə əsassız olaraq uzun müddət əməkhaqqı verildiyi, imtiyazlı xəstələr üçün aptek bölməsi tərəfindən tərtib edilmiş hesabatlarda qiyməti daha yüksək olan dərmanların miqdarının həkim reseptlərində çox göstərildiyi və bu kimi nöqsanlar nəticəsində büdcə vəsaitinin artıq xərcləndiyi müəyyən edilib.

## İcra başçısı nazirliyin aşkarladığı nöqsanlardan danışdı

***"Mən 2020-ci ilin avqust ayında Biləsuvar Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsinə təyin olunmuşam. Bizdə 2021-ci ili əhatə edən maliyyə yoxlaması baş tutmayıb".***

Bunu "Unikal"a açıqlamasında Biləsuvar RİH-nin başçısı Faiq Qürbətov deyib. O, qanun pozuntularının RİH-nin keçmiş rəhbərliyinin dövründə aşkarlandığını bildirib:

"Mən vəzifəyə təyin olunanda, artıq burada maliyyə yoxlaması gedirdi. Həmin yoxlama 2015-2020-ci illəri əhatə edirdi, amma yoxlama özü 2021-ci ildə başa çatıb. Ona görə nəticələr indi açıqlanıb. Mən bu prosesləri izləmirdim, həmin şəxslərlə də görüşməmişəm".

Qeyd edək ki, bu gün Maliyyə Nazirliyi Biləsuvar RİH-də aparılan yoxlamalar nəticəsində pozuntular aşkarlandığı ilə bağlı məlumat yayıb. Xatırladaq ki, Biləsuvarın keçmiş icra başçısı Mahir Quliyev olub. O, 2020-ci ildə Dövlət Təhlükəsizliyi Xidməti (DTX) tərəfindən həbs edilib.

***Murad İbrahimli***

## Şuşada "ASAN xidmət" mərkəzi açılacaq

***"Vətəndaşlar işğaldan azad edilmiş ərazilərə köçdükdən sonra dövlət xidmətlərinə əlçatanlığı üçün "ASAN xidmət" mərkəzləri olacaq. İlk olaraq mərkəz Şuşada açılacaq".***

"Unikal" xəbər verir ki, bunu Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev deyib.

Agentlik sədri bildirib ki, artıq Şuşada layihə təsdiq olunub: "Orada "ASAN xidmət" mərkəzi fəaliyyətə başlayacaq. Təbii ki, zəruri şərait yaradıldıqdan sonra işğaldan azad edilən digər ərazilərdə də "ASAN xidmət" mərkəzləri qurulacaq".

## İcra başçısının müavini işdən çıxarıldı

***Cəbrayıl rayon İcra Hakimiyyəti başçısının birinci müavini Arif Fərzəliyev vəzifəsindən azad edilib.***

"Unikal"ın əldə etdiyi məlumata görə, A.Fərzəliyev Yeni Azərbaycan Partiyasının Cəbrayıl rayon təşkilatının sədri təyin olunub.

Hazırda onun yerinə təyinat yoxdur.

***Anar Kəlbiyev***

## Magistraturaya sənəd qəbulu başa çatır

***Magistraturaya sənəd qəbulu bu gün başa çatır. Qəbul imtahanında iştirak etmək üçün bakalavrların ərizələrinin qəbulu internet vasitəsi ilə aparılır. İmtahanda iştirak etmək üçün ərizələrin qəbulu fevralın 1-dən başlayıb və 10 fevral saat 23:59-dək davam edəcək.***

Dövlət İmtahan Mərkəzindən (DİM) verilən xəbərə görə, 10 fevral saat 15.00-a olan məlumata əsasən, 15940 bakalavr (Azərbaycan bölməsi - 14609; rus bölməsi - 1331) ərizəsini təsdiq edib. Ərizələrini doldurmuş, lakin hələ təsdiq etməmiş (təqribən 211 nəfər), eləcə də digər bakalavrlar bu gün saat 23.59-dək elektron ərizələrini təsdiq edə bilərlər.

Sənəd qəbulunda iştirak etmək istəyənlər (şəxsi kabineti olmayanlar) ekabinet.dim.gov.az səhifəsində "Şəxsi kabinet" yaratdıqdan sonra ərizə vermək üçün tələb olunan məbləği "Şəxsi kabinet"indəki hesabına əlavə edir. Hesaba məbləği əlavə etmək üçün ödəniş üsulları ilə epayment.dim.gov.az internet səhifəsində tanış olmaq mümkündür.

Bakalavr "Şəxsi kabinet"inin istifadəçi adı və parolundan istifadə etməklə aşağıdakı linkə daxil olub "Bakalavrın elektron ərizəsi" formasını doldurur və təsdiq edir.

İmtahan 2022-ci il fevralın 20-də keçiriləcək.

# Bakının icra başçıları səksəkədə

### Həftənin sualı: paytaxt rayonlarının icra hakimiyyətləri də ləğv edilir

***Xəbər verildiyi kimi, Milli Məclisə Gəncə şəhərinin inzibati ərazi bölgüsündə dəyişiklik layihəsi daxil olub. Qanun layihəsi Nizami və Kəpəz rayonlarının ləğvini, onların inzibati ərazi dairələrinin Gəncə Şəhər İcra Hakimiyyətinin tabeliyinə verilməsini nəzərdə tutur. Bu təklifə münasibət bildirən iqtisadçı Rövşən Ağayev yazır ki, hökumətin iqtisadi rayonları inzibati ərazi vahidinə çevirmək niyyəti yoxdursa, heç olmasa əhalisi 50 min nəfərdən az kiçik rayonlar ləğv edilməlidir: "Məsələn, Naxçıvan Muxtar Respublikasında Şahbuz, Sədərək və Kəngərli rayonlarını ətraf rayonlara birləşdirmək olar - bu üç rayonun birlikdə əhalisi cəmi 74 min nəfərdir.***



Cəmi 17 min nəfər əhalisi olan Xızını, 35 min nəfər əhalisi olan Daşkəsəni də rayon statusunda saxlamaq iqtisadi baxımdan səmərəli deyil".

Dövlət Statistika Komitəsinin rəsmi hesabatına görə, ölkədə 66 rayon, 14 şəhər rayonu, 79 şəhər, 262 qəsəbə, 4246 kənd var.

68 şəhər inzibati dairəsi, 190 qəsəbə inzibati dairəsi, 1724 kənd inzibati dairəsi, 40 sahə inzibati dairəsi yaradılıb.

Ərazi 1606 bələdiyyəyə bölünüb.

İqtisadi rayonların sayı isə 14-dür: Bakı, Naxçıvan, Abşeron-Xızı, Dağlıq Şirvan, Gəncə-Daşkəsən, Qarabağ, Qazax-Tovuz, Quba-Xaçmaz, Lənkəran-Astara, Mərkəzi Aran, Mil-Muğan, Şəki-Zaqatala, Şərqi Zəngəzur, Şirvan-Salyan.

"Unikal" xatırladır ki, son dövrlər müzakirə olunan məsələlərdən biri də Bakıdakı rayonların birləşdiriləcək vahid mərkəzdən idarəedilməsidir. Belə ki, paytaxtın inzibati ərazisinə aid olan bəzi rayonların birləşdirilməsi ilə bağlı əvvəllər də cəmiyyətdə müxtəlif fikirlər müzakirə predmeti olub.

Ən real təşəbbüslərdən biri isə cənab prezident tərəfindən səsləndirilən təklif, yəni Bakının mərkəzi rayonunun yaradılmasıdır.

Ekspertlər və millət vəkilləri hesab edir ki, Səbail, Nəsimi, Yasamal, Nərimanov və qismən Xətai rayonlarının mərkəzi hissələrinin yeni sərhədlərini müəyyənləşdirməklə "Mərkəzi rayonu formalaşdırmaq mümkündür. Bu şəhərin tarixi hissəsinin qorunması, tikinti-bərpa işlərinin aparılması, nəqliyyat-ekoloji problemlərin həlli, turizmin inkişafı baxımından əhəmiyyətli olardı.

Bələdiyyələrin səlahiyyətlərinin artırılmasına gəldikdə isə, burada müəyyən yerli spesifik xüsusiyyətləri saxlamaqla, dünya praktikasından istifadə etməyin mümkünlüyü dilə gətirilir.

Əksəriyyət düşünür ki, kommunal-təsərrüfat xarakterli məsələlərin bələdiyyələrə həvalə olunması məqsədəuyğundur. Təbii ki, bu da mərhələli şəkildə həyata keçirilməlidir. Yerli özünüidarəetmə orqanlarını müasir standartlara uyğun inkişaf etdirə biləcək peşəkar bələdiyyə kadrlarının hazırlanmasına ehtiyac var. Ümumiyyətlə, yerli icra hakimiyyəti orqanlarında struktur islahatlarının davam etdirilməsi zamanın tələbidir.

Bu mənada Gəncənin iki rayonunun ləğvi əslində Bakının ya bütün, ya da əksər icra hakimiyyətlərinin ləğvinə hazırlıq kimi qiymətləndirilə bilər. Əgər ölkənin ikinci böyük şəhərində bu özünü doğruldarsa, bunun paytaxt rayonlarına tətbiq olunma ehtimalı da yüksəlir.

Onu da xatırladaq ki, bir müddət əvvəl bəzi icra hakimiyyətlərinin fəaliyyətləri ilə bağlı aşkarlanan və cəmiyyətə təqdim olunan neqativ hallar bu sahədə köklü islahatların aparılmasının vacibliyi ilə bağlı müzakirələrin açılmasına səbəb olmuşdu. İcra hakimiyyətlərinin ləğv edilməsi, böyük şəhərlərdə mer seçkilərinin keçirilməsi, bələdiyyə institutunun təkmilləşdirilməsi təklifləri sırasında idi.

Ötən ilin dekabrında isə Prezident İlham Əliyevin Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsinin təyin edilməsi haqqında sərəncamı məsələnin əhəmiyyətini yenidən gündəmə gətirdi.

Əksəriyyətin fikrincə, bu gün ümumiyyətlə dünyada müxtəlif idarəçilik modelləri üzərində iş gedir. İcra hakimiyyəti strukturu sovet dövründən mövcud olan bir struktur idi. Katiblik, raykomlar və s. Bu gün isə görünən odur ki, bizdə də bu qədər icra hakimiyyətinin fəaliyyətinə ehtiyac yoxdur. Elə Prezidentin məlum sərəncamı, yəni Qarabağ üzrə xüsusi nümayəndəsinin təyin edilməsi ona hesablanmış bir addımdır ki, artıq bölgü aparılır.

Bu da qeyd olunur ki, əhali sayı 50-60 min nəfər təşkil edən iqtisadi rayonlarla bağlı da təkmilləşdirilmiş idarəçiliyə keçmək olar. Eyni zamanda, kifayət qədər ağırlaşmış strukturlardan çevik, operativ qərarlar qəbul edən regional strukturlara keçid, idarəçiliyi mobilləşdirərək daha işlək mexanizmlə idarəetməni təşkil etmək mümkündür. Paralel olaraq isə yerli bələdiyyə institutlarının gücləndirilməsi, mer seçkilərinin təyini və bələdiyyə strukturları ilə bağlı qanunvericiliyə müəyyən dəyişikliklərin olunmasına ehtiyac yaranacaq...

Bir sözlə, görünən odur ki, ölkədə mərkəzi və yerli icra orqanlarının fəaliyyətinin optimallaşdırılması vacib şərtlərdən birinə çevrilib. Elə ona görə də yaxın vaxtlarda bu istiqamətdə ciddi qərarların verilməsi, önəmli addımların atılması kimsə üçün sürpriz olmayacaq.

***Sənan Mirzə***

**Dini və milli tolerantlıq, millətlərarası münasibətlərin inkişaf etdirilməsi;**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Dövlət-din münasibətlərində yeni səhifə

## Hacı İlham Səlimov: "Dünyanın nəbzini tutan dinimiz var".



Qanunun 8-ci maddəsində əvvəlki variant isə belə idi: "İslam dininə aid ibadət yerlərinə və ziyarətgahlara rəhbərlik edən din xadimləri müvafiq icra hakimiyyəti orqanına məlumat verilməklə Qafqaz Müsəlmanları İdarəsi tərəfindən təyin olunur və hər beş ildən bir attestasiyadan keçir".

Daha bir dəyişikliklə Azərbaycanda dini qurumlar ianə edilmiş pul vəsaitlərini plastik kart və elektron ödəmə sistemləri vasitəsilə qəbul edəcək. Bu, "Dini etiqad azadlığı haqqında" qanunun 18-ci maddəsində öz əksini tapdı.

Digər dəyişikliyə əsasən, Azərbaycanda məscidlərə təyin edilmiş din xadimi tutduğu vəzifədən azad edildikdə dini icma öz dini fəaliyyətini dayandırmayacaq. Dəyişikliklə qanunun 8-ci maddəsinin VII hissəsi ləğv edildi.

Beləliklə dini qurumlara ianə edilmiş pul vəsaitlərinin hər hansı bir formada təşkili və həyata keçirilməsini dövlət müəyyən edəcək. Yəni, bunu müvafiq icra hakimiyyəti orqanı kimi Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tənzimləyəcək.

Bəs görəsən son dəyişikliklərin dövlət-din münasibətlərinə təsiri necə olacaq? Azərbaycanda din dövlətdən ayrı olduğundan, ibadət yerlərinə nəzarətin dövlət qurumuna həvalə olunması birmənalı qarşılanmır. Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin üzvü Ceyhun Məmmədov "Dini etiqad azadlığı haqqında" qanuna edilən dəyişiklikləri vacib hesab edir. O "Unikal"a açıqlamasında bildirib ki, əslində bu dəyişikliyə çoxdan zərurət vardı: "Onsuz da hazırda ölkədə dini durumla bağlı siyasəti Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi həyata keçirir. Dövlət Komitəsinin müəyyən etdiyi orqan da bu funksiyanı yerinə yetirəcək. Qanuna edilən dəyişikliklərdən biri də ianələrin həm nağd, həm də elektron qaydada qəbulu ilə bağlı oldu. Hesab edirəm ki, bu dəyişiklik də sözügedən sahədə hesabatlılığın və şəffaflığın təmin olunmasına öz töhfəsini verəcək. Cəmiyyətdə zaman-zaman nəzir qutularına atılan ianələrin taleyi ilə bağlı müxtəlif müzakirələr gedir. Hazırda ölkəmizdə "YAŞAT" Fondunun nümunəsi var. Ona görə də belə bir sistem quraraq vəsaitin şəffaflığını və hesabatlılığını təmin edə bilərik".

Deputat deyir ki, bu dəyişiklik dini qurumları sıxışdırmaq məqsədi daşımır. Ölkəmizdə dini etiqad azadlığı var: "Türkiyədə bu metoddan illərdir istifadə olunur. Bunun bizdə də tətbiqi vacib idi".

Qafqaz Müsəlmanları İdarəsindən isə bildirdilər ki, "Dini etiqad azadlığı haqqında" qanuna yeni dəyişiklikləri alqışlayırlar: "Qafqaz Müsəlmanları İdarəsi olaraq ölkəmizdə din-dövlət münasibətlərinin tənzimlənməsi istiqamətində aparılan işləri son illər qanunvericilik müstəvisində gedən islahatların davamı olaraq qiymətləndiririk. QMİ dindarları və din xadimlərini "Dini etiqad azadlığı haqqında" qanuna nəzərdə tutulan dəyişikliklər qəbul ediləcəyi təqdirdə qanunun bütün müddəalarına birmənalı şəkildə əməl etməyə çağırır. Din xadimlərindən İdarənin mövqeyini nəzərə almaları, cəmiyyətimizdən isə bu mövzuda sui-istifadə hallarına yol verilməməsi xahiş olunur. Dini mərkəz olaraq QMİ dövlətin müvafiq icra qurumu ilə birgə əməkdaşlıqda dövlətimizin dini-mənəvi sahədə siyasətinin həyata keçirilməsində hər zaman yaxından iştirak edir və din-dövlət münasibətlərinin yüksək səviyyəsinin təmini işinə bundan sonra da öz töhfəsini verəcək. Din-dövlət münasibətlərinin yüksək səviyyəsinin qorunub saxlanılması vacibdir. Uca Allahın köməyi ilə, müstəqil dövlətçiliyimizin mənafeləri naminə atılacaq bütün addımların xeyirlərə vəsilə olacağına, xalqımızın milli-mənəvi maraqlarına xidmət edəcəyinə inanırıq".

Əjdərbəy məscidinin axundu hacı İlham Səlimov da qanuna dəyişikliklərin onların fəaliyyətinə mənfi təsirinin olmayacağı qənaətindədir. O bildirdi ki, ölkəmizdə insanların dini inanclarına hörmətlə yanaşılır. Dövlət tərəfindən dinindən asılı olmayaraq ibadət ocaqlarına qayğı göstərilir:"Biz də bu sahədə şəffaflığın olmasının tərəfdarıyıq. İbadət ocaqlarımız insanlara kömək edir. Yığılan nəzirlərdən maddi imkanı aşağı olanlara yardım edilir. Bizim üçün bütün bunlara nəzarəti hansı qurumun aparmasının bir fərqi yoxdur. Şəffaflığın bütün sahələrdə olması vacibdir".

İ. Səlimov onu da bildirir ki, dinimizdə sədəqə anlayışı var: " Peyğəmbərimiz buyurur ki, sədəqə vermək insanı 70 növ bəladan uzaqlaşdırır. İnsan sədəqə verdikdə bu bəla onun yolundan götürülür. Bu təkcə bizim dinimizə aid deyil. O ki, qaldı ianələrin elektron ödənilməsi məsələsinə, burada qəbahət heç nə yoxdur. Bu gün xarici ölkələrdə yaşayan müsəlmanların pandemiya səbəbindən ölkəmizə gəlmə imkanları yoxdur. Elektron yolla ianələrin qəbulu imkan yaradacaq ki, onlar həmin nəzirləri onlayn göndərsin. İslam dini zaman və məkan anlayışına uyğunlaşan dindir. Bu gün dünyanın nəbzini tutan dinimiz var".

*Gülayə Mecid*

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**



# Medianın İnkişafı Agentliyi yeni qanunun hədəflərini açıqladı

***"Kifayət qədər müxtəlif fikirlərin eşidildiyi və az qala bir ilə yaxın davam edən müzakirələrdən sonra "Media haqqında" Qanun artıq qüvvəyə mindi. Praqmatik fikirlər də eşitdik, sərt, bəzən barışmaz və amansız iradlar da, hətta təhqirlər, ələsalmalar da... Oxuyub danışanların da səsini duyurduq, "oxumamışam amma ittiham edirəm" ritorikasına köklənmişlərin də".***

"Unikal" xəbər verir ki, bunu Medianın İnkişafı Agentliyinin Media subyektləri və jurnalistlərlə iş şöbəsinin müdiri Natiq Məmmədli "Media haqqında" qanun barədə danışarkən deyib.

O qeyd edib ki, reallığın gözünə dik baxan və bu sərt reallığı bizə açıq şəkildə ifadə edən uzun illərin media adamlarının narahatlığı qanundan daha çox belə bir niyyətin nə dərəcədə səmimi olması ilə bağlı idi:

"Onlar bir qayda olaraq qanunun maddələrinə yox keçmişin xoş olmayan xatirələrinə istinad edirdilər. Yəni mediamızın intellektual baqajında nə vardısa, hamısını qanunun müzakirəsi zamanı nümayiş etdirə bildi.

Biz də öz növbəmizdə cavabsız sual buraxmadıq. İşimizin düz və lazımlı olduğuna inanırdıq. Eşitdiyimiz heç bir fikir bizim üçün gözlənilməz deyildi, çünki ondan da sərt fikirləri öz aramızda özümüz səsləndirirdik və saatlarla yox günlərlə sürən bu müzakirələrdə həmin sərt sualların tutarlı cavablarını da özümüz tapırdıq.

Bu qanunla hədəflərimiz nədir və nəyə nail olmaq istəyirik?

- Ölkəmizin milli informasiya mühitinin sağlamlaşmasına;
- Milli informasiya resurslarımızın güclənməsinə;
- Jurnalistika üçün həyati əhəmiyyət daşıyan plüralizmin qorunmasına;
- Jurnalistin sosial portretinin formalaşmasına, statusunun və imicinin yaxşılaşmasına, nüfuzunun güclənməsinə;
- Özfəaliyyət və qeyri-peşəkarlıqla, peşəkarlığın sərhədlərinin müəyyənləşməsinə;
- Mediada layiqli əmək münasibətlərinin möhkəmlənməsinə;
- Dövlətin medianın informasiya təminatını yaxşılaşdırmasına;
- Medianın iqtisadi müstəqilliyini gücləndirməyə yönəlmiş dövlətin güzəşt və imtiyazların dairəsinin müəyyənləşməsinə.

"Media Qanunu" ilə eyni gündə dövlət jurnalistlərə güzəştli ipotekadan faydalana bilmək hüququ verdi. Bu, Azərbaycan Prezidentinin media nümayəndələrinin sosial problemlərinə diqqətinin göstəricisidir.

Dövlət hər hansı öhdəlik qoymadan özünün qulluqçusu, müəllimi, alimi, xüsusi nailiyyətləri olan idmançısı üçün nəzərdə tutduğu imtiyazları media nümayəndəsinə də şamil etdi. Bu, yalnız sosial siyasət deyil, eyni zamanda jurnalist peşəsinin və bütövlükdə medianın nüfuzunun yüksəldilməsinə yönəlmiş addımdır.

Amma unutmayaq, "Media Qanunu" dövlətin media mühitinə yanaşmasının göstəricisidir. Jurnalist üçün ən böyük dəyər onun təmiz reputasiyasıdır, sözünə olan ictimai etimaddır. Bunu jurnalist özü qazanır. Qanun isə öz şərəfli missiyasını yerinə yetirməsi üçün jurnalistin yanındadır".

## "Azərbaycana hər zaman dəstək olmağa hazırıq" - ÜST

***"Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) olaraq Azərbaycana hər zaman dəstək olmağa hazırıq".***

"Unikal" xəbər verir ki, bunu təşkilatın Azərbaycan üzrə nümayəndəsi Hande Harmancı deyib.

O həmçinin bildirib ki, Azərbaycanın tibb işçiləri 2021-ci ildə "OpenWHO" platformasındakı kurslarda iştirak üçün qeydiyyatdan keçib.

H.Harmancı bildirib ki, bu, "Sağlamlıq üçün Həmrəylik Təşəbbüsü" və "COVID-19 əleyhinə Vaksinasiyaya Dəstək" layihələri çərçivəsində həyata keçirilir.

## Nazirlik özəl xəstəxanalarla əməkdaşlıq edəcək

***Səhiyyə Nazirliyi özəl qurumlarla tərəfdaşlıq edəcək. "Unikal" xəbər verir ki, bunu səhiyyə naziri Teymur Musayev keçirdiyi brifinqdə deyib.***

Nazirin sözlərinə görə, dünyanın əksər ölkələrində bu sistemdən istifadə olunur:

"Diaqnostika sahəsindən istifadə hər gün artır və bu sahədə heç bir qurumun institusional tərəfdaşlığı olmadan vətəndaşı yüksək səviyyəli və keyfiyyətli tiblə təmin etmək mümkünsüzdür. Buna görə dövlət qurumlarının özəl qurumlarla tərəfdaşlığı işə salınacaq. İnanırıq ki, bununla səhiyyə sisteminin maliyyələşdirilməsi, son nəticə olaraq vətəndaşların yüksək keyfiyyətli tibb xidmətinə əlçatanlığı təmin olunacaq".

## Gəncədə "ASAN xidmət" mərkəzi fəaliyyətə başladı

***Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində olan 2 saylı Gəncə regional "ASAN xidmət" mərkəzi fəaliyyətə başlayıb.***

2 saylı Gəncə regional "ASAN xidmət" mərkəzi Gəncə şəhəri, Şəmkir, Gədəbəy, Göygöl, Goranboy, Samux, Naftalan, Kəlbəcər və Xocalı rayonlarında qeydiyyatda olan ümumilikdə 1 milyona yaxın vətəndaşla yanaşı ölkə üzrə ərazi məhdudiyyəti olmadan fəaliyyət göstərəcək.

Xatırladaq ki, Prezident İlham Əliyev yanvarın 30-da 2 saylı Gəncə regional "ASAN xidmət" Mərkəzinin açılışını edib.

Hazırda 22 "ASAN xidmət" mərkəzi mövcuddur. Onlardan 6-sı paytaxt Bakıda, digər 16-sı isə regional mərkəzlər olmaqla Sumqayıt, Gəncə, Sabirabad, Bərdə, Qəbələ, Quba, Masallı, Mingəçevir, İmişli, Şəki, Şamaxı, Kürdəmir, Tovuz, Ağcabədi və Balakəndədir.

"ASAN xidmət" mərkəzlərinin fəaliyyəti ilə bağlı ətraflı məlumatı 108 "Çağrı" mərkəzinə zəng etməklə və ya www.asan.gov.az saytından əldə etmək olar.

## İcra hakimiyyətinin qarşısında özünü yandırdı

***Fevralın 9-da saat 16 radələrində Goranboy şəhər sakini S.Həsənov rayon İcra Hakimiyyətinin qarşısında üzərinə yanacaq tökərək özünü yandırmağa cəhd göstərib.***

Daxili İşlər Nazirliyindən (DİN) "Unikal"a verilən məlumata görə, polis əməkdaşlarının çevikliyi sayəsində onun bu cəhdinin qarşısı alınıb. Lakin bu zaman iki polis əməkdaşı yüngül dərəcəli yanıq xəsarətləri alıblar.

S.Həsənov xəstəxanaya yerləşdirilib, vəziyyəti qənaətbəxşdir. Polis əməkdaşlarına xəstəxanada ilkin tibbi yardım göstərilib.

Rəsmi məlumata görə, hazırda faktla bağlı araşdırma aparılır.

# Şəhidlərin adına yaraşmayan kitablar: Mövzu niyə bəsitləşdirilir?

***Qarabağ uğrunda gedən 44 günlük Vətən müharibəsində Azərbaycan Ordusu qəhrəmanlıqla torpaqlarımızı düşmən tapdağından azad etdi. Torpaqlarımız xalqın iradəsi, Azərbaycan Ordusunun gücü, Ali Baş Komandanın uğurlu siyasəti və ən əsası, şəhidlərimizin qanı ilə azad edildi.***



Müharibədən sonra saysız şeirlər, hekayələr yazılır, kitablar çap edilir. Ancaq məsələ orasındadır ki, bu kitabların əksəriyyəti qeyri-peşəkarlıqla yazılır, o kitablarda şəhidlərimizin qəhrəmanlığından çox onların uşaqlıq, gənclik illərinə yer verilib. Bir sözlə, həmin kitabların əksəriyyəti ŞƏHİD adına yaraşmayan kitablardır. Və ən acınacaqlısı isə odur ki, müəlliflər həmin kitabları idarələri, məktəbləri. hətta komitə və nazirlikləri gəzərək, satmağa çalışırlar.

Xalq şairi, millət vəkili Sabir Rüstəmxanlı Bakıvaxtı.az-a deyib ki, bu, təkcə şəhidlərlə bağlı deyil: "İndi dəb düşüb, kim nədən istəsə yazır. Tarixçi olmayan tarixdən, təbiəti bilməyən təbiətdən, iqtisadiyyatdan xəbərsizlər iqtisadiyyatdan, türkçülükdən, türk tarixindən xəbərsizlər türk dünyasından, turançılıqdan yazır. Bəlkə də, bununla ya ürəklərini soyutmaq istəyirlər, ya da nəsə bir iş gördüklərini zənn edirlər. Sanki yazmaqla borclarından çıxırlar. Qadağa qoymaq da çətindir. Hamının orta səviyyədə, orta səviyyədən bir az aşağı, bir az yuxarı savadı var. Elə hesab edirlər ki, hər kəs əlinə qələm ala, cümlə qura bilirsə, bu, elə yazıçılıq və tarixçilikdir".

S.Rüstəmxanlı deyir ki, cəmiyyəti belə bir xəstəlik bürüyüb. Onun sözlərinə görə, burada bir ölçü olmalıdır: "Xüsusilə, şəhid, müharibə mövzusu tamamilə ayrı bir məsələdir. Başa düşürəm, hər kəsin öz yaxınına, qohumuna, tanışına, şəhidlərimizə ürəyi yanır, onun üçün nəsə etmək, ailəsinə təskinlik vermək istəyir, amma bu, müqəddəs mövzudur".

Deputat qeyd edib ki, bu cür son dərəcə yüksək mövzunu belə bəsitləşdirmək olmaz: "Şəhidlər haqqında, təxminən, hamısı bir-birinə bənzəyən yazılar çoxdur. Şəhidin uşaqlığını təsvir etmək çox gözəldir, bu, işin bir tərəfidir. Amma onun ruhu, ağır döyüşlərdə olan duyğuları, qəhrəmanlığının mahiyyəti, məğzi, onu vətən torpağına bağlayan böyük sevgi, içindəki döyüş eşqinin hansı tərbiyə xətti ilə gəlməsi və sair bu kimi şeylərin heç biri göstərilməyib. Bunlar göstərilməyən yerdə bu yazıların hamısı bir-birinə bənzəyir".

S.Rüstəmxanlı onu da bildirib ki, bu kitablarda qəhrəmanlar haqqında az şey verilir, onların böyüklüyü göstərilmir: "O mənada, əlbəttə, çox diqqətli olmaq və bu cür yazılara ehtiyatlı yanaşmaq lazımdır. Məsələn, bir rayondan 50 nəfər şəhid varsa, bir nəfər 50 nəfər haqqında oçerk yazır. Beş, on dənə oçerk yazmaq çətindir, hər biri ürək ağrısı ilə yazılır. Ona görə, isti-isti və tələsik yazılır, halbuki bunu yazmaq vaxt və bir az daha böyük məsuliyyət istəyir. Mən istəyərdim, şəhidlik özü nə qədər böyük zirvədirsə, ucadırsa, şəhidlik haqqında yazılan yazılarda da ucalıq, vətən sevgisi öz əksini tapsın. Başqa cür olsa, son dərəcə dəyərli mövzuda yazılan kitablar sadəcə kitabxanada qalar, oxunmaz".

"Qanun" Nəşrlər Evinin direktoru Şahbaz Xuduoğlu da Bakıvaxtı.az-a bildirib ki, Vətən müharibəsindən sonra çoxlu kitablar çıxır: "Bu kitabların bəzisi yazısına, bəzisi isə çap keyfiyyətinə görə problemlidir. Amma bunun qarşısını almaq üçün hər hansı bir prosedur yoxdur və qarşısını almaq da mümkün deyil. Çünki bu, mənəvi bir məsələdir. Hər kəs istəyir ki, hansısa bir şəkildə şəhidlərə töhvə versin. Bəzən bir şəhidin ad günündə dostları bir kitabça çıxarmaq istəyir. Bəzən də valideynlər şəhid olmuş övladı ilə bağlı dostlarının fikirlərini kitab halında tarixə köçürmək istəyirlər. Burada, təbii ki, yazıçılar, jurnalistlər işləmir".

Ş.Xuduoğlu rəhbərlik etdiyi Nəşrlər Evinə müraciət edənlərin kitablarını nəşr etdiyini bildirib: "Mənə müraciət edilənlərin kitablarını nəşr edirik, başqa variant görmürəm. Etməsəm, düz çıxmır. İmkanım olduqda onlarla işləmələri üçün peşəkar redaktor, ya da yazıçıya yönləndirirəm. Heç kəslə işləmədən necə var, eləcə də kitabını çap etdirmək istəyənlər də var. Bütün hallarda, bizim əlimizdən onları rahatladacaq bir iş görmək gəlirsə, o da məhz bu kitabları nəşr etməkdirsə, onda biz bunu niyə etməyək?! Niyə ondan imtina etməliyik?! Yəqin ki, həmin kitabların arasında ən yaxşıları daha çox yaşayacaq və daha peşəkar formada nəşr olunacaq".

***Aytac Aslan***

# "Peyvənddən sonra 90 dəqiqə bunu edin" - Alimlərdən açıqlama

***Alimlər qrip və ya koronavirus peyvəndindən sonra 90 dəqiqəlik yüngül-orta intensivlikdə məşqin bədənin antikor istehsalını yaxşılaşdıra biləcəyini aşkar ediblər.***



"Unikal" xəbər verir ki, "Brain, Behavior and Immunity" jurnalında dərc edilən araşdırmada 70 nəfərin peyvənd edildikdən sonra müəyyən müddət idman etdikləri qeyd olunub.

Belə ki, Ayova Universitetinin alimləri 18-87 yaş arası sağlam insanları peyvənd üçün laboratoriyaya dəvət edib. Peyvənd tətbiq edilməzdən əvvəl şəxslərdən qan götürərək antikor səviyyələrini ölçən tədqiqatçılar, peyvənd edilmiş insanların bəzilərindən oturmalarını, bəzilərindən isə 90 dəqiqə ərzində yüngül və orta dərəcədə idman etmələrini istəyib.

Nəticə olaraq, peyvənddən sonra idman edən bütün şəxslərdə antikor səviyyələri artıb. Digər şəxslərin göstəricisi isə idman edən şəxslərinkindən az nəticə göstərib.

Araşdırmaya əsasən, alimlər bildirib ki, peyvənddən sonra velosiped sürmək, 90 dəqiqə sürətlə gəzmək və b. immuniteti gücləndirir.

# Malıbəyli və Quşçular qətliamından 30 il ötür

***Bu gün Malıbəyli və Quşçular qətliamının ildönümüdür. "Unikal" xəbər verir ki, qətliamın törədilməsindən 30 il ötür.***

1992-ci ilin 10-12 fevralında erməni qeyri-qanuni silahlı birləşmələrinin Şuşa rayonunun Malıbəyli, Aşağı Quşçular və Yuxarı Quşçular kəndlərinə hücumu nəticəsində təxminən 50-yə yaxın dinc azərbaycanlı qətlə yetirilib.

Şuşa rayonunda əhali tərkibi azərbaycanlılardan ibarət olan Malıbəyli və Quşçular kəndi rayonun inzibati mərkəzi olan Şuşa şəhərinə yaxın dağlıq ərazidə - yaylaqlarda yerləşirdi. Kəndlərdə təxminən 4 000 nəfərə yaxın əhali yaşayırdı.

Qarabağ müharibəsi başlanan andan bu kəndlər erməni si-



lahlı birləşmələrinin əsas hədəflərinə çevrilmişdi. 1991-ci ilin oktyabr ayından etibarən Malıbəyli tamamilə mühasirədə idi.

Fevralın 5-də kəndlərin üzərində uçan helikopter sakinlərə üzərində yaşayış yerlərini tərk etmək üçün iki gün vaxt verildiyi yazılan bildirişlər paylayıb. Bölgə 1991-ci ildən mühasirədə olduğu üçün yeganə giriş-çıxış helikopterlə mümkün olub. Şuşaya uçan axırıncı helikopter isə yanvarın 28-də ermənilər tərəfindən vurulub.

Fevralın 10-u gecə yarısı erməni silahlı birləşmələri Malıbəyliyə hücum edib. Qadın və uşaqlar Quşçular kəndinə qaçıb. Bütün evlər yandırılıb. Ümumilikdə isə hər iki kəndin sakinləri səhərə qədər düşmənlə vuruşub.

Məhz Malıbəyli, Aşağı Quşçular və Yuxarı Quşçular kəndlərindəki qətliamdan sonra yüzlərlə günahsız azərbaycanlının qanı axıdılan Qaradağlı, Ağdaban soyqırımları və əsrin ən böyük faciələrindən olan Xocalı soyqırımı baş verib.

# Arvadını güllələyərək öldürən şəxslə bağlı şok faktlar

***Yevlaxda kişi həyat yoldaşını evində güllələyib. Qətli törədən şəxs qohumunu da yaralayıb. Sumqayıtda isə 45 yaşlı kişi öz tanışı tərəfindən elə yaşadığı binanın qarşısında öldürülüb.***

"Unikal" xəbər verir ki, "Xəzər Xəbər" hər iki qətllə bağlı təfərrüatı araşdırıb.

Belə ki, dünən Yevlax rayonu Hacıselli kəndində 48 yaşlı Mehdi Qarayevin arvadını güllələyərək öldürməsi, qonşusunu isə yaralaması hadisəsinin təfərrüatı məlum olub.

Həyat yoldaşı, 1977-ci il təvəllüdlü Elnarə Qarayevanı amansızlıqla öldürən Mehdi ötən ilin yanvarında da onu qətlə yetirməyə cəhd edib. Belə ki, ötən ilin 13 yanvar tarixində Mehdi Qarayev yaşadığı mənzildə balta ilə E.Qarayeva ağır zərbələr endirərək onu öldürməyə cəhd göstərib. Həmin vaxt başından balta zərbəsi alan, barmaqlarının bir neçəsi kəsilən və sümükləri sındırılan qadının həyatını xilas etmək mümkün olub.

Kənd sakinləri güllə səsinə oyanıblar. Mehdi Qarayev həyat yoldaşı Elnarə Qarayevanı yataq otağında güllələyib. Qadın aldığı xəsarətlərdən hadisə yerində keçinib. Qətli törədən şəxs öz qohumu, 63 yaşlı İldırım Qarayevi də yaralayıb. Yaxınları hadisənin hansı səbəbdən baş verdiyindən xəbərsiz olduqlarını bildiriblər.

Qətli törədən Mehdi Qarayevi artıq polis əməkdaşları saxlayıb. Hadisənin baş vermə səbəbləri araşdırılır.

Sumqayıtda isə 45 yaşlı kişi qətlə yetirilib. Hadisə şəhərin 18-ci mikrorayon ərazisində baş verib.

Sumqayıt Şəhər Prokurorluğu faktı təsdiqləyib. Bildirilib ki, dünən səhər saat 10 radələrində Sumqayıt şəhər sakin 45 yaşlı Nazim Məmmədovun 18-ci mikrorayon ərazisində öldürülməsi barədə şəhər prokurorluğuna məlumat daxil olub. Aparılmış araşdırmalarla zərərçəkmişin tanışı, 43 yaşlı Mahir Həsənovun şəxsi münasibətlər zəminində aralarında yaranmış mübahisə



zamanı bıçaqla Nazim Məmmədova xəsarət yetirərək onu qəsdən öldürməsinə əsaslı şübhələr müəyyən edilib. Nazim Məmmədov aldığı bıçaq zərbəsindən dünyasını dəyişib. Meyit aidiyyəti üzrə təhvil verilib.

Qətli törətməkdə şübhəli bilinən Mahir Həsənov saxlanıb. Faktla bağlı Sumqayıt şəhər prokurorluğunda Cinayət Məcəlləsinin qəsdən adam öldürmə maddəsi ilə cinayət işi başlanıb. Hazırda iş üzrə zəruri istintaq tədbirləri davam etdirilir.

# Mağazaya bıçaqla basqın oldu - Xəsarət alan var

***Salyanda mağazaya bıçaqla basqın olub, xəsarət alan var.***

Bu barədə "Unikal"a Daxili İşlər Nazirliyinin (DİN) Mətbuat Xidmətindən məlumat verilib.

Salyan Rayon Polis Şöbəsinə fevralın 9-da şəhər ərazisindəki marketlərdən birinə gəlmiş naməlum şəxsin oranın sahibi, şəhər sakini A.Cəfərovu bıçaqla hədələyərək 2 000 manat pul tələb etməsi və ona xəsarət yetirməsi barədə məlumat daxil olub. Dərhal polis əməkdaşları tərəfindən müvafiq tədbirlər həyata keçirilib.

Cəfərov xəstəxanaya yerləşdirilmiş, vəziyyəti qənaətbəxşdir. Polis əməkdaşlarının "isti izlər"lə keçirdikləri əməliyyat tədbirləri nəticəsində quldurluq əməlini törətməkdə şübhəli bilinən Arbatan kənd sakini, əvvəllər dəfələrlə məhkum olunmuş Ş.Ağamalıyev saxlanılmışdır. Bu zaman o, bıçaqla özünün qarın nahiyəsinə xəsarət yetirib.

Dərhal polis əməkdaşları tərəfindən o, xəstəxanaya yerləşdirilmiş, vəziyyəti qənaətbəxşdir.

Salyan Rayon Polis Şöbəsində araşdırma aparılır.

# DİN Sumqayıtdakı qətllə bağlı məlumat yaydı

***Daxili İşlər Nazirliyi (DİN) Sumqayıtda dünən baş verən qətl barədə məlumat yayıb.***

DİN-in Mətbuat xidmətindən "Unikal"a verilən məlumata görə, Sumqayıt Şəhər Polis İdarəsi 1-ci Polis Bölməsinə fevralın 9-da saat 10 radələrində 18-ci mikrorayon ev 1-in qarşısında orada yaşayan, əvvəllər məhkum olunmuş 45 yaşlı Nazim Məmmədovun üzərində bıçaq xəsarətləri olan meyitinin tapılması barədə məlumat daxil olub. Şəhərin polis və prokrorluq orqanlarının əməkdaşları tərəfindən müvafiq tədbirlər həyata keçirilib.

Polis əməkdaşlarının "isti izlər"lə keçirdikləri əməliyyat tədbirləri nəticəsində bu əməli törətməkdə şübhəli bilinən Sumqayıt şəhər sakini, əvvəllər məhkum olunmuş M.Həsənov saxlanılaraq istintaqa təhvil verilib.

# Avtobuslarda maska tələbi ləğv edilib?

***Karantin qaydalarına əsasən, qapalı məkanlarda, xüsusilə də ictimai nəqliyyatda maska taxmaq məcburidir. Ancaq bəzi vətəndaşlar məsuliyyətsizlik edərək maska taxmır.***

Koronavirus pandemiyasının geniş miqyasda yayılmasının qarşısının alınması istiqamətində əvvəllər ictimai nəqliyyatda polis əməkdaşları tərəfindən gücləndirilmiş nəzarət-profilaktik tədbirlərinə daha tez-tez rast gəlinirdi. Son zamanlar isə sanki belə yoxlamalar azalıb. Bu isə əksər sərnişinlərdə arxayınlıq yaradıb.

Mövzu ilə bağlı Daxili İşlər Nazirliyinin mətbuat xidmətinin şöbə rəisi, polis mayoru Elşad Hacıyev bildirib ki, bu istiqamətdə tədbirlər davam etdirilir: "Polis tərəfindən bütün respublika ərazisində, o cümlədən, paytaxtda xüsusi karantin rejimi qaydа və tələblərinə uyğun olaraq qapalı məkanlarda, xüsusilə ictimai nəqliyyatda tibbi maskadan istifadə ilə bağlı nəzarət-profilaktik tədbirləri diqqət mərkəzində saxlanılır. Demək olar ki, paytaxtın bütün ərazisində xidmətə cəlb olunan əməkdaşlar tərəfindən bu qayda və tələblərə fasiləsiz nəzarət olunur".

E.Hacıyev bildirib ki, burada əsas məqsəd pandemiya şəraitində vətəndaşları, sərnişinləri və hərəkət iştirakçılarını infeksiya riskindən qorumaq və vətəndaşları profilaktik tədbirlərəməl etməyə çağırmaqdır. Bu istiqamətdə tədbirlər davam edir.

# İsmayıllıda meliorativ tədbirlər gücləndirilib

***İsmayıllıda suvarma mövsümünə hazırlıq davam edir. Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin mətbuat Dilqəm Şərifov bildirib ki, İsmayıllı rayonunda suvarma mövsümünə hazırlıq işləri sürətlə davam edir.***

Bu məqsədlə İsmayıllı Suvarma Sistemləri İdarəsi tərəfindən ötən il olduğu kimi bu il də meliorativ tədbirlər gücləndirilib. Belə ki, idarənin balansında olan torpaq məcralı kanallar texnikalar vasitəsi ilə lildən təmizlənir, suvarma suyunun maneəsiz axını təmin edilir. Ötən il balansda olan Aşıqbayramlı su anbarı əsaslı təmir olunaraq yenidən istifadəyə verilib. Bundan başqa 34 ədəd subartezian quyusu cari təmir, Talıstan kəndində isə 1 ədəd subartezian quyusu əsaslı təmir olunub. 38 ədəd hidrotexniki qurğu, 11 ədəd hidrometrik postlar və 2 kilometr kanal cari təmir olunub.

Böyük Qafqaz Sıra Dağları ilə əhatələnən İsmayıllı rayonu ərazisindən 5 ədəd gursulu çay keçir. Çaylar yaz və payız aylarında daşqın və sel zamanı əkin sahələrinə və yaşayış məntəqələrinə ziyan vurur. Ancaq əvvəlcədən görülən qabaqlayıcı tədbirlər nəticəsində sel sularının qarşısı alınır. Belə ki, çayların məcraları buldozerlər vasitəsilə təmizlənir, çay sahillərinə daş-beton bəndlər vurulur. Bu işlər rayon ərazisindən axan Talıstançayda, Girdimançayda, Cülyançayda, Göyçayçayda və Axoxçayda da davam edir.

Qeyd edək ki, İsmayıllı Suvarma Sistemləri İdarəsi rayonda 8833 hektar suvarılan torpaq sahəsinə xidmət edir. Bu sahələrin suvarılması Aşıqbayramlı su anbarı, Yuxarı Şirvan kanalı, Göyçay çay, Axox çay, Cülyan çay, Talıstan çay, Əyriçay və Girdiman çay vasitəsilə həyata keçirilir.

***Hüseyn***

# Rusiya Ukraynanın suverenliyini tanımalıdır - Britaniya XİN



***Moskvaya səfərə gələn Böyük Britaniyanın xarici işlər naziri Liz Truss Rusiya Federasiyasını diplomatiya yolu ilə getməyə və Ukraynanın suverenliyinə hörmət etməyə çağırıb.***

Bu barədə o, jurnalistlərə açıqlamasında deyib.

Qeyd edək ki, Moskvada Rusiya və Böyük Britaniya xarici işlər nazirləri arasında danışıqlar baş tutacaq. Britaniya səfirliyinin məlumatına görə, Truss Rusiyanın xarici işlər naziri Sergey Lavrovla Ukrayna ilə bağlı danışıqlar aparmaq üçün Rusiyanın paytaxtına gəlib.

"Ukraynadakı müharibə Rusiya, Ukrayna və Avropanın təhlükəsizliyi üçün fəlakətli olacaq. Buna görə mən bu həftə Moskvadayam. Rusiya diplomatik yolla getməli və Ukraynanın suverenliyinə və ərazi bütövlüyünə hörmət etməlidir", - deyə Truss qeyd edib.

# Jirinovski iki həftə koronavirusa yoluxduğunu gizlədib



***Rusiya Liberal Demokrat Partiyasının lideri Vladimir Jirinovski iki həftə ardıcıl olaraq koronavirusa yoluxduğunu ictimaiyyətdən gizlədib.***

Bunu "Kommersant" qəzeti Səhiyyə Nazirliyinə yaxın mənbəyə istinadən bilkdirib. Mənbənin sözlərinə görə, Liberal Demokrat Partiyasının mərkəzi ofisindən işçilərə bildiriblər ki, Jirinovski profilaktika məqsədi ilə "Omicron" ştammı ilə kütləvi yoluxmanı nəzərə alaraq, müvəqqəti ev karantininə keçib, uzaqdan işləməyə qərar verib. Əslində isə o, həmin vaxt yoluxubmuş. Deputatın diaqnozundan dar bir dairə, o cümlədən, şəxsi mühafizəçiləri, köməkçiləri və aparat rəhbərinin xəbəri olub.

İndi partiyanın rəhbəri Moskva Mərkəzi Klinik Xəstəxanasındadır, vəziyyəti stabildir və bütün lazımi yardımları alır.

Bundan əvvəl mətbuatda siyasətçinin vəziyyətinin ağır olduğu, bu səbəbdən də onun süni nəfəs aparatına qoşulduğu bildirilmişdi. Lakin vəziyyətlə tanış olan "RİA Novosti" agentliyinin mənbəsi bu iddiaları təkzib edib.

# "İran regionda nəqliyyat yollarının açılmasına müsbət baxır" - Abbas Musəvi

***İran regionda nəqliyyat yollarının açılmasına müsbət baxır.***

Bunu İranın Azərbaycandakı səfiri Seyid Abbas Musəvi diplomatik münasibətlərin 30-cu ildönümü və İran İslam inqilabının qələbəsinin 43 illiyi münasibətilə keçirdiyi mətbuat konfransında Zəngəzur dəhlizi ilə bağlı bildirib.

Səfir vurğulayıb ki, bu daha çox Azərbaycanla Ermənistana aiddir: " Hər hansı bir qərar qəbul edilsə buna hörmətlə yanaşacaq". Səfir deyib ki, 30 il ərzində Şərq-Qərb nəqliyyat dəhlizi istiqamətində Azərbaycanla Naxçıvan arasında əlaqələrin kömək etmişik. Həmin dəhliz hələ də açıqdır.

Pandemiyaya baxmayaraq ötən il iki ölkə arasında nəqliyyat əlaqələrin 62 faiz artıb. Ona görə də nəqliyyat əlaqələrinə nə qədər investisiya qoysaq azdır.

# Türkiyənin daha bir naziri koronavirusa yoluxub

***Türkiyənin ətraf mühit, şəhərsalma və iqlim dəyişikliyi naziri Murat Kurum koronavirusa yoluxub.***

"Unikal" xəbər verir ki, bu barədə Türkiyənin hakim Ədalət və İnkişaf Partiyasının mətbuat katibi Ömər Çelik deyib.

Ömər Çelik nazirin koronavirus testinin müsbət çıxdığını deyib və ona tezliklə sağalmasını arzulayıb.

Nazir xəstəliyi yüngül keçirir.

# "Axsaq general"la əsəb oyunu: Ohanyanın avtomobilinə qadağa qoyulub

***Ermənistanda "Qarabağ klanı"nın təmsilçilərinə qarşı yeni təzyiq metodları tətbiq edilir. AzVision.az xəbər verir ki, bu barədə yerli media məlumat yayıb. Qeyd edilir ki, iqtidar ölkəyə rəhbərlik etmiş keçmiş məmurlarla "əsəb oyunları" təşkil edir.***



- Məsələn, "Hayastan" fraksiyasının rəhbəri, keçmiş müdafiə naziri Seyran Ohanyan 8-ci çağırış parlament yenicə formalaşan zaman ona avtomobillə parlamentin həyətinə girməyə icazə verilmişdi. Sonradan məlum olub ki, "Vətəndaş Müqaviləsi"nin (Nikol Paşinyanın partiyası-red.)üzvləri onun əraziyə avtomobillə daxil olmasına imkan verməyiblər. Xüsusən də fraksiyanın rəhbəri Hayk Konjoryan bu işdə aktiv görünüb. Hazırda Ohanyana parlament ərazisinə şəxsi avtomobili ilə girməsi qadağan edilib.

Ohanyan baş prokurorluğa çağırılıbKonjoriyan və digərləri Birinci Qarabağ müharibəsində qalib adı almış və döyüşlərdə yaralanmış generalla onların arasında hansı fərqin olmasını həqiqətən bilmirlər. Əvəzində deputat Zaruhi Batoyan əlil arabası ilə parlamentin həyətinə girmək hüququna malikdir. Seyran Ohanyan da hərəkət etməkdə çətinlik çəkir. Ona görə də yayda ona xidmət edən avtomobil parlamentin həyətinə buraxılırdı. Lakin indi park etmək hüququ olmayan sürücü Ohanyanı uzaqda düşürərək ərazini tərk edir,-məqalədə yazılıb.

Qeyd edilir ki, Ohanyanın adamları parlamentin əməkdaşlarından onun xidməti avtomobilini 3-5 dəqiqə həyətdə saxlamağı xahiş ediblər. Əvvəlcə razılıq verilib, parlamentin aparat rəhbəri təhlükəsizlik xidmətinə sənəd göndəribmiş ki, orada da Seyran Ohanyan və Zaruhi Batoyanın adları göstərilibmiş.

- Lakin bir müddət sonra, oktyabrda Seyran Ohanyanın təkbaşına yeriyə biləcəyini nəzərə alaraq onun avtomobillə həyətə girmək hüququndan məhrum edilməsi ilə bağlı yeni siyasi qərar qəbul edilib və məlum imtiyazdan hazırda yalnız Batoyan istifadə edir. Üstəlik, parlament işçiləri sonuncu üçün, hətta "AN 334" nömrəli otağa asanlıqla daxil olmaq üçün pul xərcləyərək onun əlil arabasını qaldırmağa hesablanmış xüsusi lift quraşdırıblar.

Seyran Ohanyana gəlincə, parlament bu "ucuz" qərarı şərh etmir. Dedilər ki, bu qaydaları biz müəyyən etmirik, vəssalam. Açığı, bu, yuxarıdan gələn sifariş kimi görünür. Görünür köhnələrin əsəblərini hələ çox yoxlayacaqlar,-məqalə müəllifi yazıb.

Xatırladaq ki, hazırda Ermənistan müxalifətinin əsas fiqurlarından sayılan Seyran Ohanyan müdafiə naziri vəzifəsində çalışıb. O, Birinci Qarabağ müharibəsinin iştirsakçısı olub. O zaman hərbçilərimiz onu yaraladığı üçün Ohanyan bəzən "axsaq general" adlandırılır.

# "İnamlı addımlarla diktaturaya doğru irəliləyirik"- Erməni deputat

***"Ermənistan hökuməti və Avropa İttifaqının strukturları siyasi sövdələşməyə başlayıb. "Hayastan" fraksiyasının üzvləri xüsusən də hakim Boris Baxşiyanın həbsindən sonra bu qənaətə gəliblər"***



Bunu deputat Vahe Akopyan parlamentdə keçirdiyi brifinqdə məhkəmə sistemindəki proseslərə toxunarkən deyib. Erməni ordusunda casus şəbəkəsi - VİDEO- Ölkəmiz inamlı addımlarla diktaturaya doğru irəliləyir və hakim Boris Baxşiyanın ("Sisakan" dəstəsinin komandiri Aşot Minasyanın işinə rəhbərlik edib-red.) həbsi məhkəmə sisteminin və ədalətin tabutuna son mismar oldu,- Akopyan qeyd edib ki, bu fonda Avropa strukturları susmaqda davam edir.

O, həmçinin sual verib ki, Avropa strukturları nəyin bahasına susqunluq nümayiş etdirilər? İndiki hakimiyyət onlara nə vəd edir?

Fraksiyanın digər üzvü Armen Çarçyan Baxşiyanın həbsinin ciddi və pis bir presedent olduğunu qeyd edib.

Xatırladaq ki, İrəvan məhkəməsi ötən həftə Zəngəzur vilayətinin ümumi yurisdiksiyasının hakimi Boris Baxşiyanı həbs edib. O, bir müddət əvvəl könüllü dəstənin müxalif fikirli komandiri olmuş Aşot Minasyanı həbsdən azad etmişdi.

Ermənistandakı mövcud qanunvericiliyə görə isə hakimlərə qarşı cinayət işlərinin təfərrüatları açıqlanmır.

***Tural Tağıyev***

# İran səfiri Ukrayna və Rusiya gərginliyindən danışdı

***"Əgər iki ölkə arasında fikir ayrılığı, gərginlik varsa, əsas odur ki, bu, regiondan kənar qüvvələrin müdaxiləsi olmadan həllini tapsın. Digərləri qarışmasa, aradan qaldıra biləcəklər".***

Bunu İranın Azərbaycandakı səfiri Seyid Abbas Musəvi diplomatik münasibətlərin 30-cu ildönümü və İran İslam inqilabının qələbəsinin 43 illiyi münasibətilə keçirdiyi mətbuat konfransında deyib.

Səfir bildirib ki, regiondan kənar bəzi ölkələr özlərinin uzunmüddətli planları üçün region ölkələrindən istifadə etmək istəyirlər.

"Region ölkələri ayıq olmalı, onlara bu fürsəti verməməlidir. İran prezidenti Rusiyada səfərdə olub və bu, yeni hökumətin elan etdiyi qonşuluq siyasəti çərçivəsində baş tutub".



# "İstəyirəm, hamı əsl həqiqəti bilsin" - Mahir gecə klubundan danışdı

***Millimizin və Zaqreb "Dinamo"sunun futbolçusu Mahir Emreli onun barəsində Polşanın bəzi media orqanlarında yayılan iddialara münasibət bildirib.***

Qeyd edək ki, "Legiya"da çıxış etdiyi vaxtda iddia edilib ki, guya Mahir gecə həyatına meyllidir və spirtli içki qəbul edir.

Qol.az-ın məlumatına görə, 24 yaşlı futbolçumuzun Xorvatiyanın sportske.jutarnji.hr saytında dərc olunan geniş müsahibəsində bu məsələyə də toxunulub. Mahir Emreli deyib:

"Mən bu haqda danışmağı sevmirəm. Amma əlbəttə, "Dinamo"ya transferimin səbəblərini izah etmək istəyirəm. İstəyirəm ki, hamı əsl həqiqəti bilsin. İndi sizə hər şeyin necə baş verdiyini danışacağam. Mənim bir klubda çəkilən şəklim dərc olundu. Bəli, mən bəzən klublara gedirdim, bunu etiraf etmək çətin deyil. Heç kimə yalan danışmayacağam, çünki elə biri deyiləm. Mənim istirahət günüm olanda kluba gedirəm. Problem nədir ki?"



Emreli deyib ki, kluba az halda gedir. Bir neçə ayda bir dəfə: "Amma mən spirtli içki içmirəm. Qayıdaq Polşa mətbuatında yayımlanan o şəklə. Bu hadisə bizim "Slaviya" (Praqa) ilə oyundan əvvəl baş vermişdi. Həmin oyunda isə mən düz 3 qol vurdum! Mən onda ümumiyyətlə, əylənmirdim. Biz istirahətdə idik. Bir az gəzdim, vəssalam. Həmin şəkil dərc olunandan sonra mənim haqqımda dedilər ki, intizamsız futbolçuyam, kluba hörmət etmirəm. Düz yarım il mənim boş vaxtımda keçirdiyim bir görüşümdən yazdılar. Hər dəfə eyni şəkil paylaşılırdı, elə təsəvvür formalaşdırılırdı ki, mən həmişə klublara gedirəm. Mən isə yarım ildə bir dəfə orda olmuşdum. İnanılmaz bir şeydir. Bunu kim mənə qarşı edirdi, həqiqətən bilmirəm, anlamıram. Mən maksimum dərəcədə peşəkaram".

# "Qarabağ"ın oyunlarında da az azarkeş gəlirdi" - Emreli

***"Polşaya gedənə qədər mən "Qarabağ"da oynayırdım. Orada da tribunada az azarkeş olurdu. Azarkeşlər daha çox "Qarabağ"la "Neftçi" arasındakı derbi və avrokubok matçlarına gəlirdi".***



Bu sözləri milli komandamızın və Zaqreb "Dinamo"sunun hücumçusu Mahir Emreli Xorvatiyanın "Sportske novosti" nəşrinə müsahibəsində deyib.

Jurnalistin Xorvatiya liqasına az, Emrelinin daha əvvəl çıxış etdiyi Polşa çempionatına isə çox azarkeş gəlməsi barədə sualına cavabında 24 yaşlı futbolçu deyib: "Mən sizinlə razılaşmıram. Polşa ilə Xorvatiyanı müqayisə etsək, bir vacib faktı nəzərə almalıyıq. Xorvatiyanın 4 milyon, Polşanın isə 40 milyon əhalisi var. Bu, çox şeyi deyir. Ona görə də əhalinin sayını nəzərə alsaq, mən düşünürəm ki, Xorvatiya liqasına az azarkeş gəlir. Bu, normal göstəricidir".

Mahir Xorvatiya liqası barədə də fikirlərini bildirib. "Polşa çempionatında nəyin necə olacağını təxmin etmək çətindir. Bu, maraqlı yarışdır. "Dinamo"ya gəlmək məsələm yarananda Xorvatiya çempionatının oyunlarını ciddi şəkildə izləməyə başladım. Polşa çempionatından fərqli olaraq, burada taktiki planda üstünlük var, futbolçunun texniki bacarığı və futbol biliyi yüksəkdir. Xorvatiya liqasında çoxlu güclü şəxsiyyətlər var. Polşa liqası isə döyüşçülərin liqasıdır. Həmin liqa daha çox fiziki ustalıq, güc üzərində qurulub. Güclü, sərt oyunlar olur. Xorvatiyada isə hər fərqli futboldur. Burada futbol oynamağı, topa daha çox sahib olmağı sevirlər, mövqe hücumunu xoşlayırlar. Mənə belə futbol xoşdur".

# FİFA-dan yeni texnologiya - Oyundankənar vəziyyətdə...

***FİFA VAR-dan sonra yeni bir texnologiya üzərində işləyir.***

Qol.az xarici KİV-lərə istinadən xəbər verir ki, dünyanın ali futbol qurumu oyundankənar vəziyyəti 3 saniyə ərzində ayırd edə biləcək yarıavtomatik sistem yaradıb. Bu yeni texnologiya SOAT adını daşıyır. Sistemin funksiyasına əsasən, süni intellekt vasitəsi ilə meydançadakı bütün futbolçular izləniləcək. Nəticədə oyundankənar vəziyyət olduğu halda bu, 3 saniyə ərzində bildiriləcək. Əgər texnologiya sınaqlardan uğurla keçərsə, o, DÇ-2022-də tətbiq ediləcək.

Xəbərdə o da qeyd olunub ki, İngiltərə Premyer Liqası da daxil olmaqla dünyanın bütün nüfuzlu çempionatları mövcud oyundankənar vəziyyət texnologiyasını SOAT-la əvəzləməyi düşünür.

Sitemin yarıavtomatik adlandırılmasına səbəb isə budur: Süni intellekt əsaslı olan texnologiya topu avtomatik aşkarlayır. Sistem sürətli bir şəkildə futbolçunun mövqeyinin üçölçülü modellərini yaradır. Texnologiya kameralardan gələn izləmə dəqiqliyini və sensor sistemini istifadə edərək topa toxunuş anını önə çıxarır. O, bir futbolçunun 3D skeletinin hansı hissəsinin digər oyunçunun bədənindən daha öndə olduğunu müəyyən edən modellər çəkərək qərarların verilməsinə kömək edir.



# "Zirə"yə keçidim daha erkən olmalı idi" - Rahil Məmmədov

***"Mənim bu kluba keçidim daha erkən baş verməli idi". Bunu "Zirə"nin yeni transferi Rahil Məmmədov deyib.***



"Qarabağ"dan icarə əsasında paytaxt klubuna keçən 27 yaşlı müdafiəçi bildirib ki, belə bir razılıq Türkiyənin Antalya bölgəsindəki təlim-məşq toplanışından sonra əldə olunmuşdu: "Amma iki mərkəz müdafiçimizin kiçik zədə alması keçidimin gerçəkləşməsini bir qədər gecikdirdi".

Son bir ildə zədələrdən əziyyət çəkdiyini deyən təcrübəli futbolçu oyun təcrübəsi baxımından geri qaldığını etiraf edib: "Zirə"yə keçidimin bu baxımdan mənim üçün faydalı olacağını düşünürəm. Ümid edirəm ki, həm formamı bərpa edəcək, həm də yeni komandama fayda verəcəyəm".

Qeyd edək ki, Rahil Məmmədov cari mövsümün sonunadək "Zirə"də çıxış edəcək.

# Anar Məmmədovu federasiyada tanınmış iş adamının oğlu əvəzlədi



***Azərbaycan Qolf Federasiyasının hesabat-seçki konfransı keçirilib.***

Gənclər və İdman Nazirliyinin inzibati binasında təşkil olunan tədbirdə Rauf Xəlilov federasiyanın prezidenti seçilib.

Hazırda "Sabah" Futbol Klubunun Müşahidə Şurasının üzvü olan R.Xəlilov Azərbaycan Dağ Xizəyi İdman Federasiyasının prezidenti vəzifəsində də çalışıb.

Qeyd edək ki, buna qədər Azərbaycan Qolf Federasiyasının prezident sabiq nəqliyyat naziri Ziya Məmmədovun iş adamı olan oğlu Anar Məmmədov idi. Son illər federasiyanın fəaliyyətində durğunluq var idi.

Əlavə edək ki, Rauf Xəlilov isə tanınmış iş adamı, İSR Şirkətlər Qrupunun sahibi İsgəndər Xəlilovun oğludur.

# "Hücumçumuz yoxdur, qol vurmalıyıq" - Qvardiola

***"Mançester Siti"nin baş məşqçisi Pep Qvardiola İngiltərə Premyer Liqasının 24-cü turunda "Brentford"a 2:0 hesabı ilə qalib gəldikləri oyundan sonra komandasının futbolçuları haqda danışıb.***

Qol.az Britaniya mətbuatına istinadən xəbər verir ki, o, sözügedən görüşdə fərqlənən Riyad Mahrez və Kevin de Brüyne ilə yanaşı, digər oyunçularının da qol vura biləcəyini vurğulayıb: "Kevin, Mahrez, Bernardo, Rəhim və Qundo çox qol vurur. Amma daha çox oyunçumuz fərqlənə bilər. Bizim hücumçumuz yoxdur və qol vurmalıyıq. Vaxtında cərimə meydançasında olmağı və qol vurmağı bilən kifayət qədər futbolçumuz var".

Qeyd edək ki, "Mançester Siti" Premyer Liqada 60 xalla 1-ci pillədə qərarlaşıb.


# "Zirə"yə keçidim daha erkən olmalı idi" - Rahil Məmmədov

***"Mənim bu kluba keçidim daha erkən baş verməli idi". Bunu "Zirə"nin yeni transferi Rahil Məmmədov deyib.***

"Qarabağ"dan icarə əsasında paytaxt klubuna keçən 27 yaşlı müdafiəçi bildirib ki, belə bir razılıq Türkiyənin Antalya bölgəsindəki təlim-məşq toplanışından sonra əldə olunmuşdu: "Amma iki mərkəz müdafiçimizin kiçik zədə alması keçidimin gerçəkləşməsini bir qədər gecikdirdi".

Son bir ildə zədələrdən əziyyət çəkdiyini deyən təcrübəli futbolçu oyun təcrübəsi baxımından geri qaldığını etiraf edib: "Zirə"yə keçidimin bu baxımdan mənim üçün faydalı olacağını düşünürəm. Ümid edirəm ki, həm formamı bərpa edəcək, həm də yeni komandama fayda verəcəyəm".

Qeyd edək ki, Rahil Məmmədov cari mövsümün sonunadək "Zirə"də çıxış edəcək.